**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİNİN**

**ZAQATALA filialı**

**FAKÜLTƏ: İqtisadiyyat və menecment departamenti**

**BÖLMƏ: İqtisadiyyat və idarəetmə**

**İXTİSAS: Turizm işinin təşkili**

**Müdafiəyə buraxılır:**

**«____» «_____» 2025-ci il**

**Bölmə rəhbəri: ______________________**

**BAKALAVR TƏHSİL PİLLƏSİ ÜZRƏ**

**BURAXILIŞ İŞİ**

# MÖVZU: AZƏRBAYCANIN ŞİMAL-QƏRB BÖLGƏSİNDƏ EKOLOJİ TURİZMİN İNKİŞAF PERSPEKTİVLƏRİ

**QRUP:TT12-21**

**TƏLƏBƏ: BAYRAMOV NAİM BƏHRAM OĞLU**

**ELMİ RƏHBƏR: B.M ƏLİZADƏ NƏRMİN ƏSƏDULLAH QIZI**

**ZAQATALA-2025**

# MÜNDƏRİCAT

**GİRİŞ**

**FƏSİL I. EKOLOJİ TURİZM ANLAYIŞININ NƏZƏRİ-METODOLOJİ ƏSASARI.........................................................................................3**

**1.1 . Ekoloji turizm analayışı və onun mahiyyəti................................................3**

**1.2. Ekoloji turizmin inkişaf dinamikası...........................................................12**

**FƏSİL II. AZƏRBAYCANIN ŞİMAL-QƏRB REGİOUNUNDA EKOLOJİ TURİZMİN MÖVCUD VƏZİYYƏTİNİN TƏHLİLİ...................................19**

**2.1 Azərbaycanın şimal-qərb regionunun ekoloji turizm potensialı.................19**

**2.2. Azərbaycanın şimal-qərb regionunda ekoloji turizmin mövcud vəziyyəti və ekoloji turizmin actual problemləri...............................................................24**

**FƏSİL III. AZƏRBAYCANIN ŞİMAL-QƏRB REGİOUNUNDA EKOLOJİ TURİZMİN İNKİŞAF PERSPEKTİVLƏRİ...................................................31**

**3.1. Azərbaycanın şimal-qərb regionunda ekoloji turizm marşrutlarının təhlili və inkişaf istiqamətləri.........................................................................31**

**3.2. Azərbaycanın şimal-qərb regionunda ekoloji turizmin inkişafında beynəlxalq təcrübənin tətbiqi..............................................................35**

**NƏTİCƏ VƏ TƏKLİFLƏR...........................................................................43**

**ƏDƏBİYYAT SİYAHISI.............................................................................45**

**XÜLASƏ........................................................................................48**

# GİRİŞ

**Mövzunun aktuallığı**. Müasir dövrdə ətraf mühitin mühafizəsi, təbii resurslardan rasional istifadə və yerli icmaların sosial-iqtisadi rifahının təmin edilməsi dayanıqlı inkişafın əsas istiqamətlərindən biri kimi qəbul edilir. Bu baxımdan, ekoloji turizm-təbiətə əsaslanan, ekoloji tarazlığa zərər vurmadan həyata keçirilən və yerli əhalinin iqtisadi imkanlarını gücləndirməyə yönəlmiş turizm forması kimi strateji əhəmiyyət daşıyır.Azərbaycanın Şimal-Qərb bölgəsi Qax, Zaqatala, Balakən, Şəki, Oğuz və Qəbələ rayonları təbii landşaftların zənginliyi, unikal biomüxtəlifliyi və mədəni irsi ilə seçilərək ekoturizmin inkişafı üçün əlverişli şərait yaradır. Lakin bu potensialın tam şəkildə reallaşdırılması üçün sistemli planlaşdırma, icma əsaslı yanaşmalar və infrastrukturun təkmilləşdirilməsi zəruridir.

**Tədqiqatın obyekti.** Azərbaycanın Şimal-Qərb bölgəsinə daxil olan Şəki, Qax, Zaqatala, Balakən, Oğuz və Qəbələ rayonlarında yerləşən ekoturizm potensialına malik təbii resurslar, müxtəlif coğrafi landşaftlar və zəngin biomüxtəliflik əraziləridir. Bu komponentlərin davamlı turizm inkişafı çərçivəsində səmərəli idarə olunması və məqsədyönlü istifadəsi tədqiqatın əsas diqqət mərkəzində dayanır.

**Tədqiqatın predmeti.** Şimal-Qərb bölgəsində ekoturizm sahəsində mövcud vəziyyətin təhlili, turizm fəaliyyətlərinin regional səviyyədə təşkili, qarşıya çıxan problemlər, ekoloji yük, infrastruktur çatışmazlıqları, yerli icmaların iştirakı və ekoturizmin gələcək inkişaf perspektivlərinin kompleks şəkildə qiymətləndirilməsidir.

**Tədqiqatın nəzəri və metodoloji əsaslar.** Tədqiqatın nəzəri əsası ekoturizmin elmi prinsiplərinə, dayanıqlı inkişaf konsepsiyasına və beynəlxalq təcrübəyə əsaslanır. Araşdırma çərçivəsində UNWTO (Ümumdünya Turizm Təşkilatı), Honey (2008), Becken və Hay (2007), Azərbaycan Statistika Komitəsi, Azərbaycan Turizm Agentliyi kimi mənbələrin yanaşmalarından istifadə

olunmuşdur. Metodoloji baxımdan isə işdə sistemli yanaşma, müqayisəli təhlil və sahə müşahidəsi əsas yer tutur.

**Tədqiqatın informasiya bazası**. Tədqiqatın informasiya bazasını Dövlət Turizm Agentliyinin rəsmi statistik məlumatları, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin hesabatları, BMT-nin Dayanıqlı İnkişaf Məqsədləri ilə bağlı sənədlər, yerli və beynəlxalq elmi məqalələr, həmçinin regionda aparılmış sahə müşahidələri və bələdçilərlə müsahibə nəticələri təşkil edir.

**Tədqiqatda istifadə olunan metodlar.** İşdə əsasən keyfiyyət yönümlü metodlardan istifadə olunmuşdur. Bu metodlara məzmun təhlili, tematik təhlil, sahə müşahidəsi və yarıstrukturlaşdırılmış müsahibələr daxildir. Eyni zamanda statistik məlumatların deskriptiv təhlili və marşrutların müqayisəli analizi və GZİT təhlildə metodoloji yanaşmanı zənginləşdirir.

**İşin strukturu və qısa məzmunu**. Buraxılış işi giriş, üç əsas fəsil, nəticə və tövsiyələrdən ibarətdir. Giriş hissəsində mövzunun aktuallığı, məqsədi və metodologiyasının izahatı verilir. Birinci fəsildə ekoturizmin elmi-nəzəri əsasları və ekoturizm analayışı təhlil edilir. İkinci fəsildə Azərbaycanın Şimal-Qərb regiounda turizm potensialı və mövcud ekoturizm resursları araşdırılır. Üçüncü fəsildə isə bölgədə ekoturizm marşrutlarının təhlili, rast gəlinən çətinliklər, beynəlxalq təcrübələrin tətbiqi və inkişaf strategiyaları təqdim olunur. Ən sonda isə ümumiləşdirilmiş nəticələr və konkret təkliflər verilir.

# FƏSIL I. EKOLOJİ TURİZM ANLAYIŞININ NƏZƏRİ-METODOLOJİ ƏSASLARI

## 1.1. Ekoloji turizm analyışı və onun mahiyyəti

Ekoturizm XX əsrin 70-80 ci illərində “Yer kürəsinin təbiətinin qorunması” kimi qlobal bir ideyanın əsasında yaranmış və təbiətdən əldə edilən iqtisadi gəlirlərlə rekreasiya əraziləri arasında balans yaratmağa məqsəd qoymuş bir yanaşma hesab olunur. Lakin, ekoloji turizm anlayışı yaranana qədər təbii rekreasiya ərazilərinin turistlər tərəfindən həddindən artıq çox istifadəsi nəticəsində ətraf mühitə mənfi təsirlər yaranmışdır. Bu dövrə kimi ABŞ-ın bəzi milli parklar, Kamçatkada yerləşən Qeyzerlər Dərəsi və Alplarda təbiətin degredasiyası, Nepalın Everest və Cənubi Amerikadakı İnklərin Cığırında isə zibil tullantılarının artması bu mənfi təsirlərə nümunə sayılır.

"Ekoloji turizm" termini müxtəlif ədəbiyyatlarda geniş şəkildə işlədilsə də, yalnız bəzi mənbələrdə bu terminə aydınlıq gətirilmişdir Ekoturizm anlayışı ilk dəfə 1980-ci ildə meksikalı iqtisadçı və ekolog Hektor Seballos-Laskureyn tərəfindən formalaşdırılmışdır. O, bu konsepsiyanı təbiətə qarşı məsuliyyətli yanaşmanı önə çəkən, bioloji müxtəlifliyin qorunması və ekoloji maarifləndirmə məqsədi daşıyan bir səyahət növü kimi xarakterizə etmişdir və bu yanaşma çərçivəsində ekoturizm, həm təbii mühitin öyrənilməsi, həm də flora və fauna üzərində minimal təsirlə həyata keçirilən turizm fəaliyyəti kimi qiymətləndirilir (Təhsil Nazirliyi, 2019). İlk tərifdən sonra bir çox alim və təşkilat tərəfindən ekoloji turizmə müxtəlif təriflər verilmişdir. Əsas istifadə edilən təriflər aşağıda qeyd olunmuşdur.

- ✓ “Ekoturizm – ekoloji tarazlıq prinsipləri ilə mütənasib həyata keçirilən və özündə ekoloji təhsil və ekoloji məlumatlandırmanı ümumiləşdirən ekologiyaya istiqamətləndirilmiş turizmdir”. Avstraliyanın ekoturizm üzrə Milli Strategiyası, Turizm Departamenti, Kanberra-1992).

- ✓ “Ekoloji turizm – təbii resursların qorunmasını yerli əhali üçün sərfəli edərək, ekosistemin bütövlüyünü pozmayan, yerli mədəniyyəti və təbiəti daha dərindən öyrənmək məqsədilə təbii ərazilərə səyahətdir” (Ekoturizm Cəmiyyəti, Ecotourism Society, 1994).
- ✓ “Ekoturizm – bu ilk növbədə vəhşi təbiətdə yaşayaraq onu daha dərindən dərk etməyə istiqamətlənmiş və ətraf mühitə minimum təsir göstərərək yerli etnik normaları nəzərə alan, təbiət turizminin ekoloji cəhətdən dayanıqlı formasıdır. Turizmin bu növü adətən ekoloji baxımdan qorunan ərazilərdə yaradılaraq, əldə olunana gəlirlərin təbiətin qorunmasına yönəldilir”. Fennell, D. (1999), Ecotourism, Routledge.
- ✓ Ekoturizmin bir çox izah olunma xüsusiyyətlərinə baxmayaraq onun daha çox istifadə olunanı Ekoturizm Cəmiyyətinin verdiyi tərifdir, lakin bununla bərabər daha sadə tərif də istifadə olunur. “Ekoturizm – təbiətin mühafizəsinə istiqamətlənmiş təbiət turizmidir.” (Ümumdünya Vəhşi Təbiət Fondu, 1990).

Ekoturizmi digər turizm növlərindən fərqləndirən əsas xüsusiyyət, onun insanların təbiətlə qarşılıqlı əlaqəsini təşviq etməsi və bu prosesdə mədəni və ekoloji mühitə minimum təsirlə yanaşma prinsipini əsas tutmasıdır. Bu turizm forması turistlərin və turizm operatorlarının ətraf mühitin mühafizəsinə, eyni zamanda yerli icmaların sosial-iqtisadi rifahına töhfə verməsinə yönəlmişdir. Nəticə etibarilə, ekoturizm yalnız ətraf mühitin qorunması vasitəsi deyil, həm də təbii ərazilərin dayanıqlı inkişafının vacib elementinə çevrilir.

Ekoturizmin strateji məqsədi dayanıqlı inkişafın təmin edilməsinə nail olmaq və ya bu hədəfə çatmaq üçün praktik mexanizmlərin formalaşdırılmasıdır. Bu yanaşmaya, məsələn, ekoloji izlərin azaldılması, əldə olunan iqtisadi resursların təbiətin qorunmasına yönəldilməsi və əhalinin ekoloji maarifləndirilməsi kimi məsələlər daxildir. Bu kontekstdə Lindberq və həmkarları ekoturizmi daha ümumi

formada “təbiətə əsaslanan dayanıqlı turizm və istirahət növü” kimi təqdim edirlər. Onların yanaşmasında turizmin dayanıqlılığı-ekoloji, sosial-mədəni və iqtisadi təsirlərin balanslaşdırılması ilə yanaşı, turistlərin təcrübəsində pozitiv və davamlı təsirlərin yaradılması ilə əlaqələndirilir.

Ekoturizmlə bağlı çoxsaylı təriflərin mövcudluğu göstərir ki, bu sahə hələ də nəzəri və praktiki baxımdan tam olaraq sistemləşdirilməmişdir və inkişaf mərhələsindədir. Bu səbəbdən, verilən hər bir tərifin əhatəli və dolğun hesab olunması üçün onun ekoturizmin mahiyyətini təşkil edən fundamental prinsipləri əks etdirməsi vacibdir. Bu prinsiplər isə ekoturizmin yalnız təbiətə yönəlmiş fəaliyyət olmaqla kifayətlənmədiyini, eyni zamanda sosial, iqtisadi və ekoloji aspektlərin inteqrasiyasına əsaslandığını göstərir.

- ✓ Təbii rekreasiya ərazilərinin bioloji müxtəlifliyinin qorunması;
- ✓ Ekoturizm sahəsinə cəlb olunmuş regionların iqtisadi dayanıqlılıq səviyyəsinin artırılması;
- ✓ Ekoturist fəaliyyəti iştirakçılarının ekoloji mədəniyyətinin yüksəldilməsi
- ✓ Rekreasiya ərazilərinin etnoqrafik statusunun saxlanılması

Nəticə etibarilə, ekoturizmin əsas xüsusiyyətlərindən biri ondan ibarətdir ki, bu turizm forması insanların təbiətlə qarşılıqlı ünsiyyət ehtiyacını təmin etməklə yanaşı, ətraf mühitə və mədəni irsə mənfi təsirlərin minimuma endirilməsini hədəfləyir. Eyni zamanda, ekoturizm fəaliyyətində iştirak edən turistlər və turizm təşkilatçıları ətraf mühitin qorunmasına, eləcə də yerli icmaların sosial-iqtisadi inkişafına fəal şəkildə töhfə verməyə təşviq olunurlar.

Ekoturizm bu gün qlobal səviyyədə yalnız təbiətin mühafizəsi deyil, həm də ətraf ərazilərin sosial-iqtisadi inkişafına töhfə verən əsas mexanizmlərdən biri kimi qiymətləndirilir. Müxtəlif mənbələrdə ekoturizmə dair təqdim olunan təriflərin əksəriyyətində onun dayanıqlı inkişafla birbaşa əlaqələndirildiyi açıq şəkildə görünür. Dayanıqlılıq anlayışı bu kontekstdə, ilk növbədə, turizm fəaliyyətinin

ekoloji, sosial-mədəni və iqtisadi təsirləri arasında optimal və uzunmüddətli tarazlığın təmin olunması mənasında başa düşülür. Bundan əlavə, ekoturistlərin öz aralarındakı qarşılıqlı müsbət təsir və davranış modeli də bu balansın qorunmasında mühüm rol oynayır.

Beləliklə, ekoturizm yalnız rekreasiya məqsədli bir fəaliyyət növü deyil, eyni zamanda təbii resurslardan səmərəli və məsuliyyətli istifadəni təşviq edən, ekoloji tarazlığı və regional davamlı inkişafı dəstəkləyən mühüm vasitə kimi çıxış edir. Bu yanaşma göstərir ki, turizmin ekoloji baxımdan davamlı, iqtisadi cəhətdən effektiv və sosial-mədəni baxımdan inklüziv formaları daha çox dayanıqlı turizm modelləri kontekstində qiymətləndirilə bilər.

Azərbaycan Respublikasının "Turizm haqqında" Qanununa əsasən, ekoturizm-ətraf mühitə minimal təsirlə həyata keçirilən və ölkənin təbiəti, təbii ekosistemləri, bioloji və mədəni müxtəlifliyi ilə tanışlığı nəzərdə tutan turizm növü kimi müəyyən edilmişdir. Bu turizm formasında əsas məqsəd, ekosistemin bütövlüyünü qorumaqla yanaşı, təbiətə əsaslanan maarifləndirici və məsuliyyətli səyahət təcrübəsini təşviq etməkdir. Ekoturizm konsepsiyasının əsasını təşkil edən prinsiplər isə sistemləşdirilmiş şəkildə Şəkil 1.1-də təqdim oluna bilər.

Şəkil 1.1 Ekoturizmin konsepsiyası






Mənbə: Steck, B. (1999). *Sustainable tourism as a development option: Practical guide for local decision-makers*. Swiss Agency for Development and Cooperation (SDC)

Şəkildən göründüyü kimi ekoturizm-müasir turizmin ən çevik və strateji istiqamətlərindən biri olmaqla, təbiətin mühafizəsi, yerli icmaların rifahı və davamlı iqtisadi inkişaf arasında tarazlıq yaratmağa çalışan bir yanaşmadır. Mövcud sənəddə qeyd olunduğu kimi, bu sahə hələ də tam formalaşmamış və inkişafda olan bir istiqamət olaraq qiymətləndirilir. Bu da müxtəlif təriflərin, nəzəri yanaşmaların və tətbiq modellərinin paralel mövcudluğunu izah edir.

Beynəlxalq Ekoloji turizm Cəmiyyətinin açıqlamasına görə ekoloji turizm təbii sahələri ziyarət etməkdir. TIES, turistin təbii sahələrə səfər edərkən mövcud ətraf mühiti məhv etmədən məsuliyyətli yanaşmanı vurğulamışdır. Ekoloji turizmin əsas məqsədi təbii ətraf mühiti qorumaq və birgə yaşamağı təşviq etməkdir.

Bu turizm növünün daha yaxşı anlaşılması üçün ekoturistin TIES (The International Tourism Society) tərəfindən formalaşdırılmış 10 qaydası aşağıda göstərilmişdir:

- ✓ Yer kürəsinin həssas olduğunu unutmamaq;
- ✓ Özündən sonra izlər qoymayıb, yalnız şəkillər aparmaq;
- ✓ Düşdüyün mühiti öyrənmək: xalqların mədəniyyətini, coğrafiyanı;
- ✓ Yerli əhaliyə hörmət etmək;
- ✓ Ətraf mühit üçün təhlükə yaradan istehsalçıların məhsullarını almamaq;
- ✓ Yalnız keçilmiş cığırlarla hərəkət etmək;
- ✓ Ətraf mühitin mühafizəsi üzrə proqramlara qoşulmaq;
- ✓ Mümkün olan hər yerdə ətraf mühitin mühafizəsi metodlarından istifadə etmək;
- ✓ Ətraf mühitin qorunmasına köməklik göstərən təşkilatlarla əlaqələr saxlamaq
- ✓ Ekoturizm prinsiplərini dəstəkləyən şirkətlərin köməyilə səyahət etmək

1980-ci ildə Hekto Seballos-Laskureyn "ekoturizm" terminini işlədənə qədər 30-a yaxın bu və ya digər səviyyədə bu terminə yaxın olan anlayış və terminlər mövcud idi (indi də mövcuddur). Təbiətə turizm (nature tourism, nature-based or nature-oriented tourism)-ekoloji turizmdən fərqli olaraq, bu turizm növü yalnız insanların motivasiyasına (sadəcə istirahət, təbiətə gəzinti) və onların fəaliyyət xarakterinə əsaslanır (çaylarda yüksək sürətlə hərəkət, trekinq və s.) əsaslanır. Ekoturizm-bu növ turizmin əsasını isə yerli əhali ilə qarşılıqlı əlaqə və ekoturizmə yararlı ərazilərdə daha əlverişli iqtisadi şəraitin yaradılması təşkil edir. Təbiətə turizm-bir konsepsiya hesab olunmur, ətraf mühitə müxtəlif cür təsir göstərən konkret turizm növünü şərh edir.

Ekoturizmi tez-tez macəra turizmi (adventure tourism) ilə əlaqələndirirlər. Lakin ekoloji turizm həmişə macəralı xarakter daşımır, həmçinin macəra turlarının

bir çoxu öz növbəsində təbii ehtiyatların davamlı istifadəsi baxımdan ekoloji qaydalara uyğun gəlmir. Misal üçün, canlı qənimət və ya arzulanan nəticəni istənilən yolla əldə etməklə, çayları keçmək üçün bərələr düzəltmək  məqsədilə canlı ağacların kəsilməsi  ilə diqqət çəkən idman turları və safari antiekoloji turlar siyahısına daxil edilə bilər. Macəra turizmi istirahət və səyahət formalarının qeyri-ənənəvi növlərindən biri olmaqla, adətən insan təsirinə az məruz qalmış və ya ekzotik hesab olunan məkanlara yönəlmiş fəaliyyətləri əhatə edir (https://e-qanun.az/framework/49162).  Bu turizm növündə iştirakçılar vulkanlar, şəlalələr, adalar, təbii fəlakət əraziləri kimi qeyri-adi coğrafi məkanlara səfər edir, həmçinin safari turları, heyvan müşahidəsi, xəzinə axtarışı, dağ çaylarında üzmə (raftinq) kimi qeyri-adi və adrenalin yönümlü fəaliyyətlərlə məşğul olurlar. Bundan əlavə, macəra turlarında standart nəqliyyat vasitələrindən fərqli olaraq, fil, dəvə, it qoşqusu və ya hava şarı kimi qeyri-ənənəvi nəqliyyat vasitələrindən istifadə də geniş yayılmışdır.

Əksər hallarda belə turizm risklə, ciddi fiziki güclə əlaqədardır və turistdən cəsarət və ağıl tələb edir. Macəra turizmi-fiziki cəhətdən ağır, çox vaxt isə həyat üçün təhlükəli olan anlayışı ifadə edir. Macəra turizmi çərçivəsində təşkil olunan marşrutlar adətən əvvəlcədən hazırlanmış, xüsusi ssenariyə əsaslanan fəaliyyətlər toplusunu-yəni "macəra paketini"-əhatə edir. Bu tip tur proqramlarının hazırlanması prosesində iştirakçıların fiziki təhlükəsizliyinin təmin olunması əsas prioritetlərdən biri kimi dəyərləndirilir. Bu məqsədlə xüsusi texniki avadanlıqlardan istifadə olunur, peşəkar bələdçilərin müşayiəti təmin edilir və potensial risklərin minimuma endirilməsi üçün müxtəlif təhlükəsizlik protokolları tətbiq edilir. Eyni zamanda, son illərdə əvvəlcədən detallı şəkildə planlaşdırılmamış, daha çox spontan xarakter daşıyan və az öyrənilmiş, az məskunlaşmış ərazilərə-məsələn, tropik cəngəlliklərə, yüksək dağ massivlərinə,

tundra və səhralara-yönələn turlar turistlər arasında artan maraq doğurur və dinamik şəkildə populyarlaşır.

Ekoloji turizm başa düşməyə yönələn digər cəhdlər isə turist fəaliyyətinə aid edilən yanaşmalardır. Müəlliflər KC, Rijal və Sapkota ekoloji turizmi ekoloji prinsipləri daxil edən bir turist fəaliyyəti olaraq təhlil edirlər. Ekoloji turizmin məqsədi ətraf mühitin qorunmasıdır. Buna görə də, turist olaraq ekoloji turizm istiqamətlərini ziyarət edərkən məsuliyyətli olmalısınız. Heç bir turist milli parklar və qorunan ərazilərdə təbii mühitə və ya vəhşi təbiətə müdaxilə etməməlidir. Turizm şirkətləri də təbii ətraf mühitin qorunmasını dəstəkləyir və bu şirkətlər otel, qalma yeri, bələdçi və operatorlar təqdim edərək ekoloji turizmi təşviq edirlər. Məsələn, ABŞ-da ekoloji turizmi təşviq etmək üçün bir çox turizm şirkəti fəaliyyət göstərir və turizm şirkətləri arasında intrepid travel, G Adventures, Discovery Nomads Good, National Geographic Journey və Bindlestiff Tours xüsusi yer alır. Bu turizm şirkətləri ABŞ-da ekoloji turizm i təşviq etməkdə mühüm rol oynayıblar. Bu şirkətlər, yaxşı müştəri xidməti təqdim etdikləri və ABŞ-da mövcud olan ekoloji turizm məhsullarını digər ölkələrə tanıtdıqları üçün, ABŞ-a gələn əksər turistlərə ilham vermişdir (Kiper, 2023).

## 1.2. Ekoloji turizmin inkişaf dinamikası

Ekoloji turizm XX əsrin sonlarından etibarən qlobal səviyyədə sürətlə inkişaf edən turizm növlərindən birinə çevrilmişdir. Birləşmiş Millətlər Təşkilatının Dünya Turizm Təşkilatı (UNWTO) tərəfindən 2002-ci ilin "Beynəlxalq Ekoturizm İli" elan edilməsi bu sahəyə olan marağın artmasına səbəb olmuşdur. Son 20 ildə ekoturizmə olan tələb illik ortalama 10-15% artım temp ilə inkişaf edir (UNWTO, 2022). Bu artımın əsas səbəbləri Şəkil 1.2 də göstərilmişdir:

Şəkil 1.2 Ekoloji turizmin inkişafına səbəb olan amillər




Mənbə: UNWTO. (2022). *Tourism and sustainable development: A global perspective*. United Nations World Tourism Organization. https://www.unwto.org/

Şəkildən göründüyü kimi ekoliji turizmin inkişafına iqlim dəyişikliyi və ekoloji problemlərə dair ictimai narahatlığın artması, yerli icmaların iqtisadi rifahına dəstək göstərmək istəyən turistlərin sayının artması və sürətli urbanizasiya və texnologiya fonunda təbiətə qayıdış ehtiyacının yüksəlməsi təsir göstərir.

Son illərdə ekoloji problemlərə olan ictimai maraq artdıqca, ekoturizm dayanıqlı turizmin ən vacib istiqamətlərindən birinə çevrilmişdir. Bu turizm formu təbii resursların qorunması, yerli icmaların rifahının yüksəldilməsi və ətraf mühitə minimal təsir prinsipinə dayanaraq qlobal miqyasda aktual sahəyə çevrilmişdir. Bu buraxılış işində 2015-ci ildən 2025-ci ilə qədər dünya ölçəyində ekoturizmin inkişaf dinamikası statistik göstəricilər Cədvəl 1.1 də öz əksini tapmışdır.

Cədvəl 1.1 2015-2025 –ci illər ərzində Ekoturizmin inkişaf dinamikası

| İl | Turist səfərləri | Ekoturizmin payı | Qeyd |
|---|---|---|---|
| 2015 | 1.2 milyard | 90 milyon (7-8%) | Sürətli inkişafın başlanğıcı |
| 2018 | 1.4 milyard | 150 milyon | Artım davam edir |
| 2019 | 1.5 milyard | 170 milyon (>10%) | Ən yüksək səviyyələr |
| 2020 (Pandemiya) | 400 milyon | 40 milyon | 74% azalma (UNWTO) |

| | | | |
|---|---|---|---|
| 2021 | 500 milyon | 60 milyon | Qismən bərpa |
| 2023 | 1.3 milyard | 180 milyon | Post-pandemiya artımı |
| 2024 | 1.4 milyard | 200 milyon | Yeni meyillərin inkişafı |
| 2025 (proqnoz) | 1.5 milyard | 230 milyon | Sektorun tam bərpası gözlənilir |

Mənbə: UNWTO. (2020). *International tourism highlights: 2020 edition*. United Nations World Tourism Organization. https://www.unwto.org/, UNWTO. (2024). *Tourism and green investments: World tourism day 2024*. United Nations World Tourism Organization. https://www.unwto.org/

Cədvəldən də göründüyü kimi 2015–2025-ci illər üzrə məlumatlar göstərir ki, ekoturizm qlobal turizm sektorunda artan dinamikaya malikdir və artıq yalnız alternativ deyil, strateji əhəmiyyət daşıyan istiqamət kimi formalaşmaqdadır. Pandemiya dövründə ciddi geriləmə müşahidə olunsa da, sonrakı illərdə bərpa prosesi sürətlənmiş və 2025-ci il üçün proqnozlar ekoturizmin tam bərpa olunaraq əvvəlki səviyyələri ötəcəyini göstərir. Bu tendensiyalar, ekoturizmin gələcək turizm modelləri içində dayanıqlı və prioritet sahə kimi inkişaf edəcəyini təsdiqləyir.

Bundan başqa, aşağıdakı cədvəldə ekoloji turizmin regional olaraq hansı ölkələrdə daha çox inkişaf etdiyi öz əksini tapmışdır. Cədvəl hazırlanarkən https://www.eunwto.org/,https://www.unwto.org/,https://www.welcomenepal.com, https://www.parks.swiss, https://www.magicalkenya.com, https://www.pc.gc.ca, https://www.ict.go.cr, https://www.tra.gov.au, https://www.doc.govt.nz kimi saytlardan əldə edilmiş materiallardan istifadə olunmuşdur.

Cədvəl 1.2 .Ekoturizmin regional inkişaf dinamikası

| Qitə | Əsas Ölkələr | 2015–2019 | 2020–2021 | 2022–2025 |
|---|---|---|---|---|
| Asiya | Nepal, Hindistan, Malayziya | Himalay trekking marşrutlarında artım | Pandemiya səbəbilə bağlanmalar | Yenidən bərpa, rəqəmsallaşma |
| Avropa | İsveçrə, Norveç, Almaniya | Yaşıl infrastruktur inkişafı | Ziyarətçi sayında kəskin azalma | Yaşıl razılaşma ilə inkişaf |
| Afrika | Keniya, Tanzaniya, Ruanda | Safari turizmi çiçəklənir | Safari fəaliyyəti dayandı | İcma əsaslı bərpa təşəbbüsləri |
| Şimali | Kanada, ABŞ | Milli park | Parklara giriş | Karbon-neutral turlar |

| | | | | |
|---|---|---|---|---|
| Amerika | | sistemində artım | məhdudlaşdırıldı | və xidmətlər |
| Cənubi Amerika | Kosta Rika, Peru, Braziliya | Amazon və And ərazilərində yüksəliş | Qoruqlara səfərlər azaldı | Eko-sertifikatlı turizm artımı |
| Avstraliya və Okeaniya | Avstraliya, Yeni Zelandiya | Great Barrier Reef ətrafında turizm artımı | Sərt bağlanmalar | "Nature Positive Tourism" proqramı tətbiq olunur |

Mənbə: Müəllif tərəfindən hazırlanmışdır.

Cədvəldə əks olunan göstəricilər 2015–2025-ci illər ərzində ekoturizm sektorunun bütün qitələr üzrə fərqli inkişaf mərhələlərindən keçdiyini nümayiş etdirir. Bu dövrdə sahə əvvəlcə sabit artım dinamikası ilə inkişaf etmiş, lakin 2020–2021-ci illərdə COVID-19 pandemiyasının təsiri ilə qlobal səviyyədə ciddi geriləmə yaşamışdır. Bununla belə, 2022-ci ildən etibarən sektorun mərhələli şəkildə bərpa prosesi başladığı və əvvəlki yüksəliş meyillərinin tədricən yenidən formalaşdığı müşahidə olunmaqdadır.

Bu mərhələdə müxtəlif regionlar dayanıqlılığa yönəlmiş təşəbbüslərlə-məsələn, yaşıl infrastruktur (Avropa), icma əsaslı təşəbbüslər (Afrika), karbon neytral turlar (Şimali Amerika) və rəqəmsal yeniliklər (Asiya)-bərpa prosesinə daxil olmuşdur. Bu məlumatlar göstərir ki, ekoturizm artıq sadəcə alternativ turizm növü deyil, eyni zamanda qlobal turizmin strateji və davamlı inkişafına töhfə verən əsas istiqamətlərdən birinə çevrilmişdir.

Azərbaycan Respublikasındada ekoloji turizmin (ekoturizmin) inkişafı ilə bağlı son 15 ildə bir sıra dövlət proqramları, qanunvericilik təşəbbüsləri, yerli və beynəlxalq layihələr həyata keçirilib. "Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafı üzrə Strateji Yol Xəritəsi" 6 dekabr 2016-cı il tarixli fərman ilə qəbul olunmuşdur (https://president.az/az/articles/view/22134). Bu strateji yol xəritəsinin əsas müddəaları aşağıdakıda Şəkil 1.3 də göstərilmişdir.

Şəkil 1.3 Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafı üzrə Strateji Yol Xəritəsi ekoloji turizmin əsas müddəaları




Mənbə: Azərbaycan Respublikası Prezidentinin Administrasiyası. (n.d.). *Azərbaycan Respublikasının Prezidentinin rəsmi internet səhifəsi*. https://president.az/az/

Vizual materialda əks olunan məqamlar göstərir ki, ekoturizm ölkə səviyyəsində həm tematik ixtisaslaşma obyekti, həm də inkişaf üçün prioritet sahə kimi dəyərləndirilir. Bu kontekstdə milli parkların və qoruqların maddi-texniki bazasının təkmilləşdirilməsi, habelə yerli icmaların turizm proseslərinə fəal şəkildə cəlb olunması əsas hədəf istiqamətləri sırasında yer almaqdadır. Həmçinin 2003-cü ildən başlayaraq Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən Azərbaycanda ekoloji turizmi inkişaf etdirmək üçün 10 milli park yaradılmışdır. Milli Parklar aşağıdakı Cədvəl 1.3 də öz əksini tapmışdır .

Cədvəl 1.3 Azərbaycan Respublikasının milli parkları

| Adı | Yerləşdiyi ərazi | Yarandığı il | Ümumi sahəsi, hektar |
|---|---|---|---|
| Abşeron Milli Parkı | Bakı, Xəzər rayonu | 2005 | 783 |
| Ağ göl Milli Parkı | Ağcabədi, Beyləqan rayonları | 2003 | 17924 |
| Göygöl Milli | Daşkəsən, | 2008 | 12755 |

| | | | |
|---|---|---|---|
| Parkı | Goranboy və Göygöl rayonları | | |
| Şahdağ Milli Parkı | İsmayıllı, Qəbələ, Quba, Qusar, Oğuz və Şamaxı rayonları | 2006 | 130508 |
| Altıağac Milli Parkı | Xızı rayonu | 2004 | 11035 |
| Hirkan Milli Parkı | Lənkəran və Astara rayonları | 2004 | 40358 |
| Akademik Həsən Əliyev adına Zəngəzur Milli Parkı | Ordubad rayonu | 2003 | 42797 |
| Şirvan Milli Parkı | Qaradağ, Salyan və Neftçala rayonları | 2003 | 54374 |
| Samur-Yalama Milli Parkı | Xaçmaz rayonu | 2012 | 11772 |
| Qızılağac Milli Parkı | Lənkəran, Masallı və Neftçala rayonları | 2018 | 99060 |

Mənbə: Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi. (n.d.). *Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin rəsmi internet səhifəsi*. https://stat.gov.az

Cədvəldən də göründüyü kimi Azərbaycanın ekosistemlərinin qorunması və ekoturizmin inkişafı məqsədilə yaradılmış milli parklar sistemi, ölkənin müxtəlif təbii-coğrafi regionlarını əhatə edir və 2003-cü ildən etibarən ardıcıl şəkildə formalaşdırılmışdır və hal-hazırda ölkədə 10 əsas milli park fəaliyyət göstərir (https://eco.gov.az/az).

Turizm Agentliyi tərəfindən “Turizmin inkişafına dair Dövlət Proqramı (2022–2026)” illəri əhatə edən yeni proqramlar hazırlanmışdır**.** Əsas tədbirlər aşağıdakılardan ibarətdir ( https://tourism.gov.az).

- ✓ Qarabağ və Şərqi Zəngəzurda ekoturizm potensialının qiymətləndirilməsi.
- ✓ Ekoloji təbiət marşrutlarının rəqəmsallaşdırılması.
- ✓ İcma əsaslı turizmə dəstək fondlarının yaradılması.

- ✓ Yaşıl infrastruktura dövlət dəstəyi mexanizmləri.

Azərbaycanda ekoturizmin inkişafı tədrici və mərhələli şəkildə həyata keçirilib. Dövlət siyasəti, qeyri-hökumət təşəbbüsləri və yerli icmaların iştirakına əsaslanan model formalaşmaqdadır. Qarabağ bölgəsinin turizmə açılması ilə bu sahənin daha da genişlənəcəyi gözlənilir.

# FƏSİL2.AZƏRBAYCANIN ŞİMAL-QƏRB REGİOUNUNDA EKOLOJİ TURİZMİN MÖVCUD VƏZİYYƏTİNİN TƏHLİLİ

## 2.1 Azərbaycanın şimal-qərb regionunun ekoloji turizm potensialı

Ümumiyyətlə turizmin canlanması Azərbaycanda əsasən yay mövsümündə müşahidə olunur. Yay aylarında turistlər müxtəlif yerlərə istirahətə gedərək ekoloji baxımdan təmiz bir mühitdə istirahət etməyi üstün tuturlar. Mövcud şərait nəzərə alındıqda, dağlıq regionlarda yerləşən kiçik kəndlər ekoturizm baxımından turistlər üçün xüsusi cəlbediciliyə malikdir. Bu məkanlar həm ekoturizmin inkişafı, həm də kənd yerlərində yaşayan əhali üçün sosial-iqtisadi imkanların genişlənməsi baxımından əhəmiyyətli potensiala sahibdir. Azərbaycanın təbii-coğrafi üstünlüklərindən biri də onun iqlim müxtəlifliyidir. Belə ki, dünyada tanınan 11 əsas iqlim tipindən 9-u ölkə ərazisində müşahidə olunur (Ekologiya və Təbii Sərvətlər Nazirliyi, 2021). Bu müxtəliflik ölkədə bioloji zənginliyin formalaşmasına mühüm təsir göstərmişdir. Hazırda Azərbaycanda 4500-dən çox bitki növü mövcuddur ki, bu da Qafqaz florasının təxminən 64 faizini təşkil edir (Ekologiya və Təbii Sərvətlər Nazirliyi, 2021). Bu növlərdən 240-ı endemik və relikt xarakter daşıyır. Azərbaycan Respublikasının "Qırmızı Kitab"ına isə 140-a yaxın nadir və nəsli kəsilmək təhlükəsi altında olan bitki növü daxil edilmişdir (Ekologiya və Təbii Sərvətlər Nazirliyi, 2021). Fauna baxımından isə ölkədə 14 minə yaxın həşərat, 123 balıq, 9 növ su onurğasızı, 54 sürünən, 360 quş və 99 məməli növü qeydə alınmışdır. Onlardan 108-i "Qırmızı Kitab"da qorunan növlər kimi qeyd olunur ( Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondu, 2019).

Son illərdə ekoloji turizm sahəsində inkişaf edən Azərbaycan bölgələrindən biri, ölkənin şimal-qərb hissəsində, Böyük Qafqaz dağlarının cənub yamacında yerləşən Şəki-Zaqatala iqtisadi-coğrafi bölgəsidir. Şəki-Zaqatala İqtisadi-coğrafi rayonun tərkibinə Balakən, Qax, Qəbələ, Oğuz, Şəki və Zaqatala inzibati rayonları

daxildir. Şəki-Zaqatala Azərbaycanın şimal-qərbində, Böyük Qafqaz dağlarının cənub yamaclarında və Qanıx-Əyriçay vadisində yerləşir. Sahəsi 8,96 min $km^2$ –dır və ölkə ərazisinin 10,3%-ni əhatə edir. İqtisadi rayonda əhalinin sayı 581,7 min nəfər, o cümlədən şəhər əhalisi 160,7 min nəfərdir. Ölkə əhalisinin 5,7%-i burada yaşayır və urbanizasiya səviyyəsi 27,6% dir (https://gsaz.az/articles/view). Əhali əsasən dağətəyi ərazidə yaşayır. Meşələr ərazinin 27%-ni örtür, əsas hissəsi Balakən və Zaqatala rayonlarının payına düşür (Ekologiya və Təbii Sərvətlər Nazirliyi, 2021). Aşağıdakı Şəkil 2.1 də Azərbaycanın şimal-qərb regiounda yerləşən Şəki-Zaqatala İqtisadi rayonuna aid xəritə öz əksini tapmışdır.

Şəkil 3. Şəki-Zaqatala İqtisadi rayonunun xəritəsi




Mənbə: https://gsaz.az/articles/view/112/ShakiZaqatala-iqtisadicografi-rayonu

Vizual materiallardan da aydın görünür ki, Şəki-Zaqatala iqtisadi-coğrafi rayonu altı inzibati rayonu əhatə edir. Regionun iqlim şəraiti, relyef quruluşu və hidroqrafik şəbəkəsi burada ekoturizmin inkişafı üçün əlverişli təbii şərait formalaşdırır. İl ərzində günəş radiasiyasının davamiyyəti 2200–2400 saat təşkil edir ki, bu da regionda günəşli günlərin üstünlük təşkil etdiyini göstərir. Ən soyuq

aylarda orta temperatur göstəriciləri ərazi üzrə dəyişkəndir: bəzi zonalarda qış şəraiti mülayim (0...–5 °C), digərlərində isə çox mülayim və ya olduqca yumşaq (2.5...5 °C) iqlimlə xarakterizə olunur. Aprel–oktyabr ayları arasında müşahidə olunan mümkün buxarlanma səviyyəsi 400–1000 mm intervalındadır ki, bu da rütubətlilik və su balansı baxımından əhəmiyyətlidir. İyun–sentyabr aylarında müşahidə edilən quraqlıq günlərinin sayı isə adətən 5–25 gün arasında dəyişir. Küləyin orta illik sürəti aşağıdır – təxminən 2 m/s və daha az, bu da turizm fəaliyyəti üçün əlverişli mühit yaradır. Regionun iqlimi əsasən zəif kontinentallıqdan orta kontinentallığa qədər dəyişir. İl ərzində şaxtasız dövrün uzunluğu 150–250 gün təşkil edir, 0 °C-dən aşağı temperatur müşahidə olunan günlərin sayı isə 20–120 gün arasında tərəddüd edir (Azərbaycan Milli Elmlər Akademiyası Coğrafiya İnstitutu, 2020). Dəniz səviyyəsindən 500–700 metr yüksəkliklərdə subtropik iqlim hökm sürsə də, yüksəklik artdıqca iqlim sərin və soyuq mülayim xarakter alır. Yağıntı miqdarına görə bu region, Lənkəran-Astara zonasından sonra ölkədə ikinci yeri tutur. Ən az yağıntı Acınohur ərazisində (300–350 mm), ən çox isə orta dağlıq zonalarda (1000–1300 mm) müşahidə edilir (Azərbaycan Milli Elmlər Akademiyası Coğrafiya İnstitutu, 2020). Hidroqrafik şəbəkə də olduqca zəngindir. Buradakı çayların əksəriyyəti dağ-mənbəli olub, gursulu və sel potensialına malikdir. Ən əhəmiyyətli çaylara Mazım (30 km; 2720 m), Kiş (33 km; 3680 m), Şin (39 km; 2800 m), Balakənçay (39 km; 1000 m), Əyriçay (46 km; 3200 m), Katex (54 km; 2840 m), Qaraçay (56 km; 2800 m), Kümrük (55 km; 3480 m), Dəmiraparan (69 km; 3400 m), Əlican (98 km; 3500 m), Türyan (180 km; 3680 m) və Qanıx (413 km; 3500 m) daxildir.Bölgə həmçinin müxtəlif təbii hidroloji resurslarla – xüsusilə termal və mineral sularla zəngindir. Oğlanbulaq, Qızbulaq, Hamambulaq, Budusşor, Ağbulaq və Xal-xal kimi su mənbələri, regionun balneoloji turizm potensialını artırır. Tufangöl, Nohurgöl (Qəbələ), Acınohur gölü (Qax) kimi təbii göllər isə ekoloji turizmin müxtəlif

formaları üçün əlverişli mühit yaradır. Bu iqlim, su, relyef və biomüxtəliflik zənginliyi, regionun ekoturizm imkanlarını daha da gücləndirir. Ekoloji turizmə artan maraq fonunda bu bölgənin həm daxili, həm də beynəlxalq səviyyədə turizm fəaliyyətlərinin mərkəzinə çevrilmə potensialı kifayət qədər yüksəkdir. Bu xüsusiyyətlərə əsaslanaraq, aşağıda təqdim olunan Cədvəl 2.1-də Azərbaycanın Şimal-Qərb regionunun ekoturizm imkanları təbii resurslar və ekoloji əhəmiyyət kontekstində sistemləşdirilmişdir.

Cədvəl 2.1 Şəki-Zaqatala İqtisadi rayonunun ekoloji turizm potensialı

| Rayon / Şəhər | Əsas ekoloji turizm obyektləri | Təbii resurslar və xüsusiyyətlər | Turizm imkanları / Fəaliyyətlər |
|---|---|---|---|
| Qəbələ | Nohur göl, Yeddi gözəl şəlaləsi, Tufandağ, Qəbələ meşələri, Şahdağ Milli Parkı, Duruca və Bum kəndləri, Qəmərvan meşələri və çay vadiləri, Vəndam kəndi, Əmirvan yaylaqları, | Göllər, meşə massivləri | Dağ-velosiped, ekoloji yay düşərgələri, piyada gəzintilər, kənd turizmi, ekoloji müşahidələr, kamping, Kənd turizmi və yerli qonaqlama (homestay), Meyvə bağlarında turlar və təbii məhsul dadımları |
| **Oğuz** | Xalxal şəlaləsi, Meşəbəy kəndi, Qalaboyun və Bayan kəndləri, Dağ-meş. Zonası, Bağlıca və Filfilli çayları, Yaylaqlar (Sarıdağ, İlisu yolu istiqaməti) | Dağ-meşə iqlimi, ekoloji tarazlıq | Yaşıl düşərgə, atçılıq turları, təbiət gəzintiləri, velo turlar , kənd turizmi, dağ yürüşləri, Kənd evlərində qonaqlama və kənd həyatını tanıma, yayla səfərləri |
| **Şəki** | Kiş çayı və Kiş kəndi, Oxud və Baş Göynük kəndləri, Şəki yaylaqları (Sarıca, | Meşəliklər, dağlar, çaylar | Dağ yürüşləri, ekoloji turlar, kənd turizmi, ailə təsərrüfatlarında |

| | | | |
|---|---|---|---|
| | Qaratorpaq və s.), Bio-divers ərazilər, "Xudgər" və "Meşəbaşı" şəlalələri, Danaveç yaylası | | iştirak, dağ velosipedi və atla gəzinti, Meyvə bağlarında turlar və təbii məhsul dadımları,Kamping, çadır turizmi, foto turizm və macəra turları, yerli təbii məhsullarla tanışlıq |
| Qax | İlisu kəndi, Ram-rama şəlaləsi, Qafqaz dağları, Əyriçay və Kürmük çayı sahələri, Sarıbaş kəndi, İlisu Dövlət Təbiət Qoruğu | Dağlar, çaylar, meşəlik ərazilər | Kamping, təbiət yürüşləri, kənd turizmi,dağ yürüşləri, homestay xidmətləri, ekoloji təbiət müşahidələri, fotoşəkil çəkmək, çadır turizmi, Ekoloji təbiət müşahidələri (quşlar, florası, faunası) |
| Zaqatala | Zaqatala Dövlət Təbiət Qoruğu, Mazıx, Qımır, Mamrux və digər dağ kəndləri, Silban meşələri, Qalaçay vadisi, Car kəndi, Katex çayı | Subtropik iqlim, nadir bitki növləri, dağlar, çaylar, meşəlik ərazilər | Ekoloji yürüşlər və dağ turları, kənd evlərində qalmaq və yerli həyat tərzi ilə tanışlıq, təbiət gəzintiləri və ornitoloji müşahidələr, kamping və ekoloji turlar, foto turizm və macəra turları, yerli təbii məhsullarla tanışlıq (bal, fındıq, qoz, meyvələr) |
| Balakən | Katex meşələri, Mazımçay və Balakənçay, Gullar kəndi, Qubek dağ massivləri və dərələri, | Dağlar, meşələr, çaylar | təbiət gəzintiləri və dağ yürüşləri, kənd evlərində qalmaq və kənd turizmi, lokal məhsullarla tanışlıq |

| | | | |
|---|---|---|---|
| | Meşə zolaqları və fındıq bağları | | (bal, fındıq, meyvə),kamping və fotosessiyalar, ornitoloji və ekoloji müşahidələr,macəra turları və foto-turizm |

Mənbə: Şəki Regional Turizm İdarəsi və İsmayıllı Regional Turizm İdarəsindən əldə edilən məlumatlar əsasında müəlliflər tərəfindən hazırlanmışdır.

Cədvəldən də göründüyü kimi Azərbaycanın Şimal-Qərb regionu, müxtəlif təbii resurslarla zəngin olan bir regioundur və ekoloji turizm fəaliyyətləri üçün ideal şərait vardır. Burada yerləşən meşəliklər, dağlar, çaylar, şəlalələr və yaylalar, ekoturizm, kənd turizmi, dağ turizmi və təbiət müşahidələri üçün geniş imkanlar təqdim edir. Regionlarda təşkil olunan təbiətə yönəlik gəzintilər, dağ marşrutları, ekoloji yönümlü turlar və kənd turizmi kimi fəaliyyətlər, bir tərəfdən yerli əhalinin sosial rifahının yaxşılaşmasına, digər tərəfdən isə ətraf mühitin mühafizəsinə töhfə vermək potensialına malikdir. Regionun ekoloji turizm potensialı, həmçinin yerli təbii məhsulların (bal, fındıq, meyvə və s.) tanıdılması və yerli həyat tərzinin nümayiş etdirilməsi baxımından da əhəmiyyətlidir. Bu, turistlərə unikal təcrübələr təqdim edir və yerli iqtisadiyyata töhfə verir.

## 2.2. Azərbaycanın şimal-qərb regionunda ekoloji turizmin mövcud vəziyyəti və ekoloji turizmin aktual problemləri

Azərbaycanın şimal-qərb regionunda ekoloji turizmin mövcud vəziyyətini araşdırmaq üçün anket sorğudan istifadə olunmuşdur. Sorğunun hazırlanmasında google formsdan istifadə olunmuşdur. Bu sorğunun məqsədi, Azərbaycanın Şimal-Qərb bölgəsində ekoloji turizmin inkişafına turistlərin və yerli vətəndaşların münasibətini öyrənməkdir. Sorğu nəticəsində respondentlərin ekoturizmə dair məlumatlılıq səviyyəsi, maraqları, gözləntiləri və bu sahədə mövcud problemlərə

baxışları təhlil edilibdir. Sorğuda 216 respondent iştirak etmişdir və sorğunu tədqiq etmək üçün python alətindən istifadə edilmişdir. İlk olaraq, respondentlərin demoqrafik göstəriciləri-cins**,** yaş qrupu**,** təhsil səviyyəsi**,** yaşadığı yer və Şimal-Qərb bölgəsinə səfər statusu üzrə paylanmaları təhlil edilmişdir. Bu göstəricilər sorğunun sosial-iqtisadi və coğrafi kəsimini anlamaq baxımından mühüm əhəmiyyət daşıyır.

Tədqiqat işi hazırlanarkən qeyd olunan məqsədə uyğun aşağıdakı suallara cavab axtarılmışdır:

- ✓ Respondentlərin məlumatlılıq səviyyəsi nə qədərdir?
- ✓ Məlumatlılıqla iştirak arasında əlaqə varmı?
- ✓ Respondentlər ekoturizmə necə yanaşır?
- ✓ Əsas maneələr və tövsiyələr nələrdir?

Respondentlərin cins bölgüsünə əsasən, sorğuda iştirak edənlərin 70.97%-i kişi**,** 29.03%-i isə qadın olmuşdur. Bu fərq respondentlərin seçimində müəyyən gender disbalansının olduğunu göstərir. Eyni zamanda bu nəticə, ekoturizm fəaliyyətlərinə kişilərin daha çox cəlb olunduğunu və ya kişilərə sorğunun daha geniş çatdırıldığını ehtimal etdirə bilər.

Respondentlər arasında ən böyük yaş qrupu 18–25 yaş aralığıdır və bu yaş qrupuna ümumi iştirakçıların 41.94%-i daxildir. Növbəti əhəmiyyətli kateqoriya 17 yaş və daha az olan iştirakçılardır **(**22.58%**).** Bu nəticələr göstərir ki, sorğuda gənc yaş qrupları dominantlıq təşkil edir**,** bu da gənclərin ekoturizmə marağının yüksək olduğunu və ya sorğunun əsasən təhsil müəssisələrində keçirildiyini göstərə bilər.

Təhlil nəticəsində məlum olmuşdur ki, respondentlərin əksəriyyəti ali təhsil almış və ya almaqda olan şəxslərdir. Bu, ekoturizm mövzusunda məlumatlılığın daha çox təhsilli əhali arasında yayıldığını və sorğunun iştirakçı bazasında intellektual səviyyənin yüksək olduğunu göstərir. Orta və peşə təhsilli respondentlər isə daha az təmsil olunmuşdur.

Respondentlərin coğrafi bölgüsünə görə, sorğuda iştirak edənlərin böyük hissəsi Zaqatala rayonunun sakinləridir**.** Bu göstərici sorğunun əsasən bu bölgədə keçirildiyini və nəticələrin əsasən lokal baxış bucağını əks etdirdiyini göstərir. Digər rayonlardan qatılanların sayı məhdud olmuşdur.

Respondentlərin əksəriyyəti Şimal-Qərb bölgəsində daimi yaşayan şəxslərdir, yəni yerli sakinlər sorğuda üstünlük təşkil edir. Bu isə göstərir ki, sorğunun nəticələri daha çox bölgə sakinlərinin ekoturizmə münasibəti və təcrübələrini əks etdirir. Daxili turistlər və xarici qonaqların sorğuda iştirak səviyyəsi isə məhdud olmuşdur.

Respondent profilinin təhlili göstərir ki, sorğuda iştirak edənlər əsasən gənc, ali təhsilli, kişi cinsindən olan və Zaqatala bölgəsində yaşayan yerli sakinlərdir**.** Bu demoqrafik quruluş nəticələrin lokal və gənc perspektivi əks etdirdiyini ortaya qoyur və ekoturizm təşviq strategiyalarının da bu hədəf auditoriyanı nəzərə alaraq hazırlanmasının vacibliyini vurğulayır.

1. Respondentlərin ekoturizmə dair məlumatlılıq səviyyəsi

Sorğunun nəticələrinə əsasən, respondentlərin ekoturizm haqqında məlumatlılıq səviyyəsi orta səviyyədən bir qədər yüksək olaraq qiymətləndirilmişdir. Bu nəticə təsviri statistika (descriptive statistics) üsulu ilə əldə olunmuşdur. Bu metod vasitəsilə respondentlərin cavabları əsasında orta (mean), median və mod kimi mərkəzi meyl göstəriciləri hesablanmışdır. Əldə olunan göstəricilər aşağıdakı kimidir:

- ✓ Orta (Mean): 3.26
- ✓ Median: 3.00
- ✓ Mod (Ən çox verilən cavab): 3.00

Bu göstəricilər göstərir ki, respondentlərin əksəriyyəti ekoturizm haqqında özlərini “orta” və “yaxşı” məlumatlı hesab edirlər. Yalnız 3 nəfər “5 – çox yaxşı

bilirəm" cavabını vermişdir ki, bu da yüksək məlumatlılıq səviyyəsinin hələ də məhdud olduğunu göstərir.

Bu analiz 1-dən 5-ə qədər olan Likert miqyasında kodlaşdırılmış cavabların statistik təsviri əsasında aparılmış və məlumatlılıq səviyyəsinin ümumi dəyərləndirilməsinə imkan vermişdir.

2. Məlumatlılıqla iştirak arasında əlaqə

Məlumatlılıq səviyyəsi ilə ekoturizm fəaliyyətində iştirak arasında statistik əlaqənin olub-olmaması Chi-square ($\chi^2$) testindən istifadə edilməklə təhlil olunmuşdur. Bu metod iki kateqorial dəyişən arasındakı əlaqənin əhəmiyyətini yoxlamaq üçün geniş şəkildə istifadə edilir. Təhlildə:

- ✓ Məlumatlılıq səviyyəsi 1-dən 5-ə qədər Likert miqyası ilə ölçülmüş,
- ✓ İştirak statusu isə "Bəli" və "Xeyr" kimi iki kateqoriya ilə kodlaşdırılmışdır.

Aparılmış chi-square analizi nəticəsində p-qiyməti $p > 0.05$ olaraq əldə edilmişdir. Bu isə statistik baxımdan əhəmiyyətli fərqin olmadığını göstərir. Yəni, məlumatlılıq səviyyəsi yüksək olan respondentlər belə, mütləq şəkildə ekoturizm fəaliyyətlərində iştirak etmirlər.

Bu nəticə göstərir ki, məlumatlılıq-iştirak əlaqəsi statistik olaraq sübut olunmur, bu da ekoturizmdə iştirakın digər faktorlar-məsələn, maraq, infrastruktur, vaxt və sosial imkanlarla bağlı ola biləcəyini göstərir.

3. Respondentlərin ekoturizmə münasibəti

Respondentlərin ekoturizmə münasibətləri təsviri statistika (descriptive statistics) metodu ilə təhlil olunmuşdur. Bu münasibət Likert miqyası (1-5 ballıq) əsasında kodlaşdırılmış suallar vasitəsilə ölçülmüşdür. Likert miqyasında 1 "qətiyyən razı deyiləm", 5 isə "tam razıyam" anlamına gəlir.

Ən mühüm ifadələrdən biri olan "Ekoturizm ətraf mühiti qoruyur" sualına verilən cavabların orta göstəricisi 3.5 olmuşdur. Bu isə respondentlərin bu ifadə ilə

mülayim dərəcədə razı olduqlarını, yəni ekoturizmi ümumilikdə müsbət bir fəaliyyət kimi qəbul etdiklərini göstərir.

Bu analizdə təsviri statistika (xüsusilə orta, mod, median) vasitəsilə respondentlərin ümumi münasibət səviyyəsi dəyərləndirilmişdir. Standart sapma göstəricisi isə cavabların bir qədər yayılmış olduğunu göstərmişdir.

Nəticə olaraq, münasibət ümumilikdə müsbət olsa da, qəti və güclü razılıq səviyyəsində deyil-bu da mülayim optimizm kimi şərh oluna bilər.

4. Əsas maneələr və tövsiyələr

Bu analizdə açıq sualların mətn analizi (content analysis) metodu istifadə olunmuşdur. Respondentlərin açıq formada cavab verdiyi "Problemlər və Tövsiyələr" bölməsi üzrə yazılı fikirlər söz tezliyi (word frequency analysis) əsasında kodlaşdırılmış və təhlil edilmişdir.

Mətnlər əvvəlcə morfoloji təmizləmə və normalizasiya mərhələsindən keçirilmiş, daha sonra cavablardakı ifadələr təkrarlanma tezliyinə görə qruplaşdırılmışdır. Ən çox rast gəlinən ifadələr bunlar olmuşdur:

- ✓ "zəifliyi"
- ✓ "reklam"
- ✓ "məlumat"
- ✓ "infrastruktur"
- ✓ "çox azdır"

Bu sözlərin dominantlığı göstərir ki, ekoturizmin qarşısında əsas maneələr informasiya çatışmazlığı, reklam və infrastruktur problemləridir. Təhlilin nəticəsində aşağıdakı təkliflər formalaşmışdır:

- ✓ Sosial media vasitəsilə məqsədli məlumatlandırma kampaniyaları
- ✓ Bölgələrdə ekoturizm infrastrukturunun (yollar, xidmətlər) təkmilləşdirilməsi
- ✓ Yerli icmaların maarifləndirilməsi və aktiv iştirakı

Bu metod keyfiyyət yönümlü tədqiqat yanaşması hesab olunur və respondentlərin şəxsi baxış və təcrübələrini sistemləşdirərək ümumi meylləri müəyyən etməyə imkan verir. Anket sorğusunun nəticəsində Cədvəl 2.2 də Azərbaycanın şimal-qərb regiounundа ekoloji turizm bağlı GZİT təhlil aparılmışdır.

Cədvəl 2.2 Azərbaycanın şimal-qərb regiounundа ekoloji turizmin GZİT təhlili

| | |
|---|---|
| Güclü Tərəflər (Strengths)<br>- Yüksək məlumatlılıq səviyyəsi<br>- Ekoturizmə müsbət münasibət<br>- Biomüxtəliflik və təbii resursların zənginliyi | Zəifliklər (Weaknesses)<br>- İştirak səviyyəsinin aşağı olması<br>- Reklamın və təbliğatın zəifliyi<br>- İnfrastruktur çatışmazlığı |
| İmkanlar (Opportunities)<br>- Sosial mediada maarifləndirmə potensialı<br>- QHT və dövlət layihələri ilə dəstək<br>- İcma əsaslı turizm təşəbbüsləri | Təhlükələr (Threats)<br>- Ekoloji risklər və kommersiyalaşma<br>- Qeyri-peşəkar fəaliyyətin ətraf mühitə təsiri<br>- İqlim dəyişikliyi və sosial laqeydlik |

Mənbə: Müəllif tərəfindən hazırlanmışdır

Cədvəldən göründüyü kimi Şimal-Qərb bölgəsində aparılmış sorğu nəticələrinə əsaslanan SWOT təhlili göstərdi ki, bölgənin ekoturizm potensialı yüksəkdir. Respondentlər ekoturizmə müsbət yanaşır və ümumi məlumatlılıq səviyyəsi orta-yüksəkdir. Lakin iştirak nisbətən aşağıdır və əsas maneələr kimi infrastruktur çatışmazlığı, təqdimatın zəifliyi və rəsmi informasiya boşluğu göstərilir.

Əldə olunan nəticələr göstərir ki, bu sahənin inkişafı üçün sosial media üzərindən maarifləndirmə, yerli icmaların aktiv iştirakı və dövlət-QHT dəstəyi mühüm əhəmiyyət daşıyır. Təhlükələr sırasında isə ekoloji kommersiyalaşma və peşəkar yanaşma çatışmazlığı ön plandadır. Bu əsasda, bölgədə ekoturizmin davamlı inkişafı üçün strateji yanaşma zəruridir.

Şimal-Qərb bölgəsində aparılmış ekoturizm üzrə sorğu tədqiqatı, respondentlərin məlumatlılıq səviyyəsi, iştirak davranışı, münasibətləri və sahə ilə bağlı tövsiyə və problemlərini çoxşaxəli şəkildə təhlil etməyə imkan yaratdı. Tədqiqatın nəticələri göstərdi ki, respondentlər ümumilikdə ekoturizm anlayışı ilə

tanışdır (orta məlumatlılıq: 3.26), lakin bu məlumatlılıq onların praktik iştirakına tam əks olunmur (yalnız 48.3% son 12 ayda iştirak edib).

Statistik testlər-Chi-square, korelyasiya və ANOVA təhlilləri nəticəsində məlumatlılıq səviyyəsi ilə yaş, cins, iştirak kimi dəyişənlər arasında statistik əhəmiyyətli əlaqələr aşkarlanmadı ($p > 0.05$). Bu isə onu göstərir ki, fərdi demoqrafik xüsusiyyətlər ekoturizm iştirakını birbaşa müəyyənləşdirmir.

Respondentlərin ekoturizmə münasibəti əsasən müsbətdir-ekoturizmin ətraf mühitin qorunmasına töhfə verdiyi fikri ilə mülayim razılıq ifadə olunmuşdur (orta: 3.5). Açıq sualların təhlili nəticəsində reklam və məlumat zəifliyi, infrastrukturun olmaması və təşkilatçılığın qeyri-kafiliyi əsas problemlər kimi önə çıxmışdır.

SWOT təhlili bu nəticələri ümumiləşdirdi: bölgədə məlumatlılıq və maraq yüksəkdir (güclü tərəflər), lakin praktiki tətbiq zəifdir (zəifliklər). Sosial media və QHT-lərin potensial dəstəyi imkanlar yaradır, lakin təbiətə zərər, peşəkar çatışmazlıqlar və sosial laqeydlik risk kimi qalır.

Nəticə etibarilə, ekoturizmin bölgədə davamlı inkişafı üçün kompleks yanaşma tələb olunur: təbliğat və maarifləndirmə, infrastrukturun gücləndirilməsi, icma iştirakının təmin edilməsi və dövlət dəstəyinin genişləndirilməsi prioritetlər sırasında olmalıdır.

# FƏSİL3. AZƏRBAYCANIN ŞİMAL-QƏRB REGİOUNUNDA EKOLOJİ TURİZMİN İNKİŞAF PERSPEKTİVLƏRİ

## 3.1.Azərbaycanın şimal-qərb regionunda ekoloji turizm marşrutlarının təhlili və inkişaf istiqamətləri

Müasir dövrdə qloballaşma və intensiv urbanizasiya nəticəsində ətraf mühitin deqradasiyası, təbii resursların tükənməsi və ekoloji tarazlığın pozulması kimi problemlər ön plana çıxmışdır. Bu kontekstdə dayanıqlı turizm növlərinə keçid, xüsusilə də ekoloji turizm (ekoturizm)**,** dünya ölkələri üçün prioritet məsələ olmuşdur. Ekoturizm təkcə ətraf mühitin qorunmasını deyil, eyni zamanda yerli icmaların iqtisadi inkişafını və mədəni irsin yaşadılmasını da hədəfləyən kompleks bir yanaşmadır (UNWTO, 2019).

Azərbaycan təbii-coğrafi xüsusiyyətləri və bioloji müxtəlifliyi ilə ekoturizmin inkişafı üçün əlverişli imkanlara malik ölkələrdən biri hesab olunur. Xüsusilə Şimal-Qərb bölgəsinə daxil olan Qax, Zaqatala, Balakən, Şəki, Oğuz və Qəbələ rayonları özünəməxsus landşaft quruluşu, dağ-meşə ekosistemləri, qorunan təbiət əraziləri və zəngin mədəni irs nümunələri ilə digər regionlardan fərqlənir və ekoturizm baxımından xüsusi əhəmiyyət daşıyır. Bu bölgələrdə həm təbii gözəllikləri, həm də kənd həyatını özündə birləşdirən ekoturizm marşrutlarının formalaşdırılması, turistlərin marağını artırmaqla yanaşı, regionun sosial-iqtisadi inkişafına da töhfə verə bilər (Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi, 2022).

Lakin hazırda bu marşrutların əksəriyyəti sistemsiz, qeyri-rəsmi və informasiya çatışmazlığı ilə müşayiət olunur. Bu səbəbdən, Şimal-Qərb regionunda mövcud ekoturizm marşrutlarının təhlili**,** onların strukturlaşdırılması **və** gələcək inkişaf istiqamətlərinin müəyyən olunması elmi baxımdan zəruri tədqiqat sahəsinə

çevrilmişdir. Aşağıdakı cədvəl 3.1də Şimal-qərb regionunda işarələnmiş haykinq marşrutları öz əksini tapmışdır.

Cədvəl 3.1 Şimal-qərb regionunda işarələnmiş haykinq marşrutları

| № | Marşrut Adı | Məsafə (km) | Müddət | Min. Hündürlük (m) | Max. Hündürlük (m) |
|---|---|---|---|---|---|
| 1 | Xan Sarayı – Xan Yaylağı (1-ci rayon) haykinq marşrutları | 8.1 | 4 s 40 dəq | 767 | 2100 |
| 2 | Xan Sarayı – Xan Yaylağı (Çatqal dərəsi) haykinq marşrutları | 8.7 | 4 s 20 dəq | 767 | 2100 |
| 3 | Xan Sarayı – Qurucana şəlaləsi haykinq marşrutları | 4.6 | 2 s 10 dəq | 767 | 1010 |
| 4 | Karvansaray – Güllütəpə – Müharibə abidəsi haykinq marşrutları | 4.1 | 2 s 40 dəq | 695 | 996 |
| 5 | Qalaça – Sumuqala haykinq marşrutları | 4.1 | 3 s | 1214 | 1738 |
| 6 | İlisu – Şahəli şəlaləsi haykinq marşrutları | 2.06 | 1 s | 1151 | 1269 |
| 7 | Ləkit – Yeddi kilsə kompleksi haykinq marşrutları | 2.9 | 45 dəq | 484 | 612 |
| 8 | Car – Honzoqor – Qəbizdərə haykinq marşrutları | 15.6 | 8 s | 550 | 1850 |
| 9 | İlisu – Qaşqaçay haykinq marşrutları | 16 | 9 s 10 dəq | 1020 | 2280 |
| 10 | Qaşqaçay – Qumux haykinq marşrutları | 5.5 | 2 s 10 dəq | 1020 | 1250 |

Mənbə: Şəki Regional Turizm İdarəsi və İsmayıllı Regional Turizm İdarəsi

Cədvəldən də göründüyü kimi Azərbaycanın Şimal-Qərb regionunda yerləşən 10 əsas haykinq (hiking) marşrutu üzrə məsafə, müddət və hündürlük məlumatları sistemləşdirilmiş şəkildə təqdim olunmuşdur. Bu marşrutlar təbiətə əsaslanan turizm, xüsusilə dağ yürüşləri və ekoloji turlar üçün yüksək potensiala malikdir**.**

Həmçinin şimal-qərb regionunda işarələnməsi nəzərdə tutulan haykinq marşrutlarıda vardır.

- ✓ Oğuz şəhəri – Calud monastırı haykinq marşrutu

- ✓ Orta Zəyzid kəndi – Baş Küngüt kəndi haykinq marşrutu
- ✓ Orta Zəyzid kəndi – Alban məbədi – Kəfdo haykinq marşrutu
- ✓ Şəki şəhəri – Vərəzət kəndi haykinq marşrutu
- ✓ Qax rayonunun Sarıbaş kəndi ərazisində turistlərin istifadə edə biləcəyi asan/orta kateqoriyalı haykinq marşrutu
- ✓ Balakən rayonu ərazisində haykinq marşrutu

Şimal-Qərb regionu xüsusilə Qax, Zaqatala, Balakən, Şəki, Oğuz və Qəbələ rayonları zəngin təbiətə və dağlıq landşaftlara malik olsa da, ekoturizm marşrutlarının yaradılmasında və davamlı inkişafında bir sıra əngəllərlə qarşılaşır. Aşağıda şimal-qərb regionunda ekoturizm marşrutlarının yaradılmasında rast gəlinən çətinliklər təqdim olunur:

1. İnfrastrukturun zəifliyi-Dağ kəndlərinə və qoruq ərazilərinə aparan yolların zəif olması, mövsümi keçilməzlik və nəqliyyat çatışmazlığı turist axınına mənfi təsir edir (Dövlət Turizm Agentliyi, 2022). Dövlət Turizm Agentliyinin 2022-ci il hesabatlarında qeyd olunur ki, yüksək dağlıq ərazilərdə yol və nəqliyyat infrastrukturu ekoturizm üçün əlverişli səviyyədə deyildir.

2. Nişanlama və xəritələşdirmə sistemlərinin olmaması-UNWTO və ECOTRANS təşkilatlarının tövsiyə etdiyi nişanlama sistemləri hələ ki regionda tətbiq edilməyib. Trekking platformalarında turistlər bu marşrutlarda bələdçisiz yön tapmağın çətinliyindən şikayət edirlər.

3. İcma iştirakının aşağı səviyyədə olması-Turizmin inkişafı üçün yerli əhalinin təlimlərə çıxışı və turizmə yanaşması vacibdir. Lakin bir çox kəndlərdə bu sahədə məlumatlılıq və maraq aşağı səviyyədədir. Dövlət Turizm Agentliyinin məlumatına görə, kənd icmalarında ekoturizm sahəsində təlim keçmiş şəxslərin sayı məhduddur.

4. Qoruqlara girişin məhdudluğu-Zaqatala və İlisu Dövlət Qoruqları kimi yüksək ekoloji dəyərə malik ərazilər Ekologiya və Təbii Sərvətlər Nazirliyi

tərəfindən idarə olunur və giriş yalnız xüsusi icazə ilə mümkündür və bu turist marşrutlarının sərbəst planlaşdırılmasına mane olur.

5. Təhlükəsizlik və tibbi xidmət çatışmazlığı-Yürüş marşrutlarında təhlükəsizlik tədbirləri və ilkin tibbi yardım məntəqələrinin olmaması turistlərin həyatına risk yaradır. Bu, xüsusilə ucqar dağ kəndlərinə gedən uzun məsafəli marşrutlarda daha çox müşahidə olunur.

Regionun ekoloji və mədəni irsinin qorunaraq turizm dövriyyəsinə cəlb olunması məqsədilə yeni ekoturizm marşrutlarının hazırlanması planlı və elmi əsaslarla həyata keçirilməlidir. Bu istiqamətdə nəzərdə tutulan yanaşmalar aşağıdakı tövsiyələr və strateji prioritetlər çərçivəsində təqdim olunur.

1.Rəsmi marşrutların xəritələşdirilməsi və nişanlanması: UNWTO və Avropa Dağ Nişanlama Sistemi (Alpine Marking System) nümunəsində olduğu kimi, Şəki-Qax-Zaqatala ərazisində nişanlı və GPS-ə inteqrasiya olunmuş marşrutlar qurulmalıdır.

- ✓ İcma əsaslı marşrutların təşkili: Yerli bələdçilərin iştirakı ilə kənd evləri, yerli sənətkarlıq, etnoqrafik təqdimatlar və kənd təsərrüfatı təcrübələri əsasında marşrutlar qurulmalıdır (Kosta Rika modeli).
- ✓ Qoruqlarla əməkdaşlıq çərçivəsində açıq zonalar yaradılması**:** Zaqatala və İlisu qoruqları ilə razılaşdırılmış “turizm zonaları” formalaşdırılaraq, ekosistemi qorumaqla turizmə açıq hissələr müəyyən olunmalıdır (Kanada modeli).
- ✓ Maarifləndirici və ekoloji təlim komponentlərinin daxil edilməsi: Ekoturizm marşrutlarına təhsil yönümlü elementlər – məktəb səfərləri, bələdçi kursları və təbiət dərsləri – inteqrasiya olunmalıdır (Norveç modeli).
- ✓ Rəqəmsal informasiya sistemlərinin inkişafı: Mobil tətbiqlər və veb platformalar vasitəsilə marşrut xəritələri, bələdçi məlumatları və ekoturizm qaydaları təqdim olunmalıdır.

Bu tədbirlərin həyata keçirilməsi Şimal-Qərb regionunun ekoturizm potensialını daha geniş auditoriyaya çatdırmaqla yanaşı, həm də təbiətin qorunmasına, yerli icmaların iqtisadi inkişafına və turizmin dayanıqlılığına xidmət edəcəkdir.

## 3.2. Azərbaycanın şimal-qərb regionunda ekoloji turizmin inkişafında beynəlxalq təcrübənin tətbiqi

Müasir dövrdə turizmin davamlı inkişafı məqsədi ilə ekoturizmə yönəlik müxtəlif modellərin tətbiqi geniş vüsət alır. Bu yanaşmalar həm təbiət mühitinin qorunmasını, həm də yerli icmaların iqtisadi və sosial baxımdan inkişafını hədəfləyir. Ekoturizmin səmərəli idarə olunması və davamlı inkişafının təmin edilməsi sahəsində Kosta Rika, İsveçrə, Kanada və Norveç kimi ölkələrin təcrübələri beynəlxalq miqyasda tətbiq oluna biləcək uğurlu yanaşmalar kimi diqqətəlayiqdir. Azərbaycanın Şimal-Qərb bölgəsində yerləşən Qax, Balakən, Zaqatala, Qəbələ, Oğuz və Şəki rayonları öz təbii landşaftı, bioloji müxtəlifliyi və mədəni irsi ilə bu tip modellərin tətbiqi baxımından əlverişli imkanlar təklif edir. Bu buraxılış işinin əsas məqsədi qeyd olunan ölkələrin ekoturizm təcrübələrini Azərbaycan reallığına uyğunlaşdıraraq tətbiq potensialını təhlil etmək, mümkün institusional və sosial maneələri müəyyənləşdirmək, eləcə də bu yanaşmaların tətbiqi nəticəsində əldə oluna biləcək faydaları qiymətləndirməkdən ibarətdir.Aşağıdakı cədvəl 3.2 və 3.3 də bu 4 modelin elmi izahı və üstünlükləri eyni zamanda AZərbaycanın şimal-qərb regionuna tətbiqi öz əksini tapmışdır.

Cədvəl 3.2 Modellərin işləmə mexanizmi

| Model | Qısa izahı | Üstünlükləri | Mənbə |
|---|---|---|---|
| 1. Kosta Rika modeli (İcma əsaslı ekoturizm) | Yerli icmalar turizm xidmətlərini (qonaq evi, bələdçilik) özləri təşkil | Kənd əhalisinin dolanışığı yaxşılaşır, ənənəvi həyat tərzi qorunur, turizmdən | Honey, M. (2008), s. 170–179 |

| | | | |
|---|---|---|---|
| | edir | gəlir bölgədə qalır | |
| 2. İsveçrə modeli (Təbiətə uyğun infrastruktur) | Ekoloji tikinti materialları, enerjiyə qənaət və təbiətə minimum təsir | Dağ mühitinin qorunması, davamlı infrastruktur, turistlərin ekoloji məsuliyyəti artır | Becken & Hay (2007), s. 113–114 |
| 3. Kanada modeli (Milli park əsaslı idarəetmə) | Qoruqlarda marşrutlar elmi əsasla təşkil olunur və yerli icma prosesə cəlb edilir | Qoruq turizmi inkişaf edir, biomüxtəliflik qorunur, dövlət–icma əməkdaşlığı artır | Weaver (2001), s. 131–136 |
| 4. Norveç modeli (Ekoloji təhsil proqramları) | Turist və əhali üçün təbiətə dair seminarlar, düşərgələr və maarifləndirmə | Davamlı davranış formalaşır, şüurlu turizm, uşaqların və gənclərin iştirakı | Nepal & Chipeniuk (2005), s. 321–324 |

Mənbə: Müəllif tərəfindən hazırlanmışdır.

Cədvəl 3.2. Azərbaycanın Şimal-Qərb Bölgəsində Tətbiqi

| Model | Tətbiq yeri | Fəaliyyət nümunəsi |
|---|---|---|
| Kosta Rika modeli | İlisu (Qax), Katex (Balakən), Aşağı Tala (Zaqatala) | Ailəvi qonaq evləri, kənd həyatı təcrübəsi, yerli yeməklər |
| İsveçrə modeli | Tufandağ (Qəbələ), Qarabaldır (Oğuz), Baş Göynük (Şəki) | Ekoloji otellər, günəş panelləri, ağac və daşdan dağ evi |
| Kanada modeli | Zaqatala və İlisu qoruqlarının bazasında Milli Parklar yaratmaqla | Marşrut cığırları, dağ yürüşləri, ekoloji monitorinq sistemləri |
| Norveç modeli | Qax və Şəki məktəbləri, Zaqatala mərkəzi | Ekotəhsil seminarları, ekoklub, uşaq üçün təbiət düşərgəsi |

Mənbə: Müəllif tərəfindən hazirlanmişdir

Cədvəl 3.2 və 3.3 görüldüyü kimi aparılmış təhlillər göstərir ki, müxtəlif ölkələrin təcrübəsində uğurla tətbiq olunan ekoturizm modelləri Azərbaycanın Şimal-Qərb bölgəsinin təbii və mədəni xüsusiyyətlərinə uyğunluq təşkil edir. Bu yanaşmaların tətbiqi zamanı müəyyən inzibati, texniki və sosial maneələrin ortaya çıxması mümkündür. Lakin dövlət qurumları, yerli idarəetmə orqanları, qeyri-hökumət təşkilatları və icmalar arasında qarşılıqlı əməkdaşlıq formalaşdırılarsa, bu çətinliklərin öhdəsindən gəlmək realdır. Belə yanaşmaların həyata keçirilməsi təkcə turizm sektorunun inkişafına deyil, eyni zamanda ekoloji mühitin mühafizəsi və yerli əhalinin sosial-iqtisadi rifahının yüksəldilməsinə də töhfə verə bilər. Təqdim olunan model yanaşmalar, həm strateji inkişaf planlarının

hazırlanmasında, həm də yerli səviyyədə konkret tədbirlərin həyata keçirilməsində mühüm rol oynaya bilər.

Bu modellərin təşkili zamanı yaranan əsas çətinliklər aşağıdakılardır.

İcma əsaslı ekoturizm (Kosta Rika modeli)

- ✓ Yerli icmalarda turizm idarəetməsi və xidmət sahəsində peşəkar hazırlığın zəif olması
- ✓ İnfrastrukturun qeyri-kafi səviyyəsi (nəqliyyat, kommunikasiya)
- ✓ Yerli əhali ilə turizm idarəediciləri arasında etimadsızlıq və koordinasiya çatışmazlığı
- ✓ Maliyyə vəsaitlərinin çatışmazlığı və layihə əsaslı maliyyələşmənin zəifliyi
- ✓ Turizm fəaliyyətlərinin qeyri-rəsmi və vergisiz həyata keçirilməsi, vergi və hüquqi tənzimləmələrin qeyri-müəyyənliyi

2. Təbiətə uyğun infrastruktur (İsveçrə modeli)

- ✓ Ekoloji tikinti və enerji səmərəliliyi üçün texnologiya və materialların baha başa gəlməsi
- ✓ Dağlıq ərazilərdə infrastrukturun tikintisi üçün fiziki və texniki məhdudiyyətlər
- ✓ Ekoloji tikinti qaydalarının hüquqi bazada möhkəm şəkildə tənzimlənməməsi
- ✓ Yerli tikinti şirkətlərinin yaşıl inşaat texnologiyaları üzrə təcrübəsinin az olması

3. Milli park əsaslı idarəetmə (Kanada modeli)

- ✓ Azərbaycanda qoruqlara və milli parklara girişin qadağan və ya məhdud olması
- ✓ Qoruqların idarəçiliyi ilə turizm sektorunun əməkdaşlıq səviyyəsinin aşağı olması

- ✓ Biomüxtəlifliyin qorunması ilə kütləvi turizm arasında balansın qurulmaması
- ✓ Ziyarətçilərin sayı və davranışına nəzarət üçün monitorinq sistemlərinin olmaması

4. Ekoloji təhsil proqramları (Norveç modeli) |

- ✓ Məktəblərdə və turizm mərkəzlərində təbiət yönümlü təhsil proqramlarının azlığı
- ✓ Ekoloji biliklərin və maarifləndirmə resurslarının zəif yayılması
- ✓ Yerli bələdçilərin və müəllimlərin bu sahədə təlim keçməməsi
- ✓ İctimai marağın zəif olması və turistlərin ekoloji məsuliyyətinin aşağı səviyyədə olması

Əgər bu modellər uğurla tətbiq olunarsa aşağıdakı nəticələr əldə oluna bilər:

- ✓ Tətbiqdən sonra gözlənilən uğurlar
- ✓ Regionda turizmdən gəlirlərin artması
- ✓ Yerli əhalinin məşğulluq imkanlarının genişlənməsi
- ✓ Ətraf mühitin mühafizəsində icmaların rolunun artması
- ✓ Azərbaycanda ekoturizm üçün nümunəvi regional modelin formalaşması

Ekoturizm modellərinin Azərbaycanın Şimal-Qərb bölgəsində tətbiqi bir sıra fundamental üstünlüklər qazandırmaq potensialına malikdir. Bu üstünlüklər aşağıdakılardır:

- ✓ Turizm fəaliyyətlərinin yalnız iri şəhərlərlə məhdudlaşmaması, bölgələrə yayılması və regional inkişafın təşviqi
- ✓ Kənd icmalarının sosial və iqtisadi rifah səviyyəsinin yüksəlməsi
- ✓ Təbii ehtiyatların və ekosistemlərin qorunması, onların gələcək nəsillərə ötürülməsi
- ✓ İqlim dəyişikliyinə uyğunlaşmaq üçün yerli səviyyədə ekoloji tədbirlərin dəstəklənməsi

- ✓ Əhalidə və turistlərdə davamlı turizm davranışlarının və ekoloji məsuliyyətin formalaşdırılması

Bu 4 model komplementar yanaşma ilə tətbiq oluna bilər, yəni bir bölgədə bir neçə modelin elementləri eyni vaxtda yer ala bilər (məsələn, Qaxda həm icma əsaslı turizm, həm də təhsil proqramı). Modellərdən əldə edilən təcrübə əsasında Azərbaycan üçün yeni hibrid ekoturizm modeli də formalaşdırıla bilər. Tətbiq zamanı həm dövlət qurumlarının (Turizm Agentliyi, Ekologiya Nazirliyi), həm də yerli bələdiyyələrin və QHT-lərin iştirakı vacibdir.

Cədvəl 3.2 və 3.3 də aparılmış təhlillər göstərir ki, müxtəlif ölkələrin təcrübəsində uğurla tətbiq olunan ekoturizm modelləri Azərbaycanın Şimal-Qərb bölgəsinin təbii və mədəni xüsusiyyətlərinə uyğunluq təşkil edir. Bu kontekstdə Qax, Zaqatala və Şəki rayonlarında fəaliyyət göstərən iki bələdçi-Orxan Hüseynzadə və İftixar Sultanov ilə aparılmış müsahibələr bölgədə ekoturizm fəaliyyətlərinin real vəziyyəti və problemləri haqqında əhəmiyyətli məlumatlar təqdim edir. Aşağıdakı Cədvəl 3.3 müsahibə iştirakçılarının fikirlərinin müqayisəli təhlili öz əksini tapmışdır.

Cədvəl 3.3 Müsahibə iştirakçılarının fikirlərinin müqayisəli təhlili

| Təhlil meyarı | Orxan Hüseynzadə | İftixar Sultanov |
|---|---|---|
| Fəaliyyət təcrübəsi | 10 il (6 il videoqraf, 4 il turizm sahəsində) | 3 il peşəkar bələdçi kimi |
| Əsas fəaliyyət coğrafiyası | Zaqatala | Zaqatala, Qax, Şəki |
| Turistlərin maraq dairəsi | Uçqar dağ kəndlərinə yürüş, kənd həyatı | Dağ yürüşləri, qorunan təbiət əraziləri |
| Turist profili | Əsasən yerli turistlər | Əsasən yerli, bəzən xarici turistlər |
| Ekoturizmin icmaya təsiri | Yerli əhalinin ev kirayəsi, məhsul satışı | Mahsul satışı, evlərin və heyvanların kirayəsi |
| İcmaların birbaşa iştirakı | Yüksək fayda, lakin yaşlı nəsil dominantdır | Təcrübə olmasa da, iqtisadi fayda mümkündür |
| Əsas problemlər | Yol infrastrukturu, giriş məhdudiyyəti | Yol, bələdçi təlimləri, şərtsiz evlər, icazələr |
| Qoruqların turizmə açılması barədə fikirlər | Müsbət yanaşma, lakin giriş qadağası maneədir | Milli parka çevrilməsini dəstəkləyir |
| Təlim və maarifləndirməyə | Maarifləndirmə vacib hesab | Yeni kadrlara təlimin |

| | | |
|---|---|---|
| münasibət | edilir | əhəmiyyəti vurğulanır |
| Beynəlxalq modellərin tətbiqi | İsveçrə modelinə uyğun kənd evləri təklif edir | Norveç modelinə uyğun layihələr irəli sürüb |
| Dəstək ehtiyacı | Maliyyə və dövlət tərəfdaşlığı | Maliyyə, icazə və infrastruktur dəstəyi |

Mənbə: Müəllif tərəfindən hazırlanmışdır.

Cədvəldən göründüyü kimi iki müsahibənin qeyd etdiyi əsas fəaliyyət növləri dağ yürüşləri, kənd həyatının təbliği və qorunan ərazilərə maraqdır. Bu, Şimal-Qərb bölgəsinin ekoturizm üçün yüksək potensialını təsdiqləyir. Xüsusilə ucqar kəndlərin turizmə cəlb olunması həm yerli mədəniyyətin, həm də təbii mühitin tanıdılması baxımından əhəmiyyətlidir. Aşağıda aparılmış müsahibənin əsas nəticələri sistemləşdirilmiş şəkildə təqdim olunur:

- ✓ İcmaların inteqrasiyası-Hər iki bələdçi kənd icmalarının ekoturizmə qoşulmasının iqtisadi faydalarını vurğulayır. Orxan Hüseynzadə daha çox yaşlı əhalinin təsərrüfat fəaliyyəti ilə məşğul olduğunu qeyd edir, İftixar Sultanov isə təcrübəsiz insanların belə bu sahəyə qoşula biləcəyini vurğulayır. Bu yanaşma icma əsaslı turizmin tətbiqində elastik və inklüziv mexanizmlərin əhəmiyyətini göstərir.
- ✓ Əsas maneələr-Hər iki respondent yol infrastrukturu və qoruqlara giriş məhdudiyyətlərini əsas problem kimi qeyd edir. Bundan əlavə, İftixar Sultanov icazə mexanizmlərinin çətinliyi və yerli əhalinin təklif edə biləcəyi turizm resurslarının zəifliyini vurğulayır. Bu, ekoturizm strategiyasının uğuru üçün inzibati və logistik sistemlərin gücləndirilməsini tələb edir.
- ✓ Təklif və beynəlxalq təcrübə-Hər iki bələdçi beynəlxalq modellərdən xəbərdar olduqlarını və onları yerli şəraitə uyğun tətbiq etmək istədiklərini bildirir. Orxan Hüseynzadə İsveçrə modelinin kənd evləri üzərində tətbiqini qeyd edir, İftixar Sultanov isə Norveç modelinə uyğun layihələr hazırladığını bildirir, lakin onların dəstəksiz qalmasından narahatlıq ifadə edir.

- ✓ Təlim və marifləndirmə-Hər iki respondent ekoturizm sahəsində peşəkar bələdçi təlimlərinin, məktəb səviyyəsində marifləndirici tədbirlərin vacibliyini vurğulayır. Bu, regionda ekoloji məsuliyyətli davranışların və turizm bacarıqlarının inkişaf etdirilməsi üçün önəmlidir.

Müsahibələr göstərir ki, Azərbaycanın Şimal-Qərb bölgəsində ekoturizm üçün nəzərəçarpacaq potensial mövcuddur, lakin bu sahənin davamlı inkişafı üçün aşağıdakı addımların atılması zəruridir:

- ✓ İnfrastrukturun təkmilləşdirilməsi-Xüsusilə dağ kəndlərinə gedən yolların təmiri və marşrutların nişanlanması.
- ✓ Qoruqlara giriş rejiminin sadələşdirilməsi-Kontrollu turizm zolaqları yaradılaraq həm təbiətin qorunması, həm də turizm inkişafı arasında balans təmin edilməlidir.
- ✓ İcmaların səlahiyyətləndirilməsi-Yerli əhaliyə mikro-kreditlər, təlimlər və hüquqi maarifləndirmə proqramları təqdim olunmalıdır.
- ✓ Dövlət və özəl sektor arasında əməkdaşlıq-Dayanıqlı turizm layihələrinə investisiya mühiti yaradılmalı, bələdçilərlə daha stabil və şəffaf tərəfdaşlıqlar qurulmalıdır.
- ✓ Ekoturizm layihələrinin dəstəklənməsi-Yerli təşəbbüslərin (bələdçilərin layihələri və marşrut planları) reallaşdırılması üçün dövlət və QHT-lərin texniki və maliyyə dəstəyi təmin olunmalıdır.

Bu tədqiqatda Kosta Rika, İsveçrə, Kanada və Norveç modellərinin Azərbaycanın Şimal-Qərb bölgəsindəki ekoturizmə tətbiq imkanları təhlil olunmuşdur. İlkin nəticələr göstərir ki, bölgənin zəngin təbiəti və mədəniyyəti icma əsaslı, təbiətə uyğun və maarifləndirici turizm modelləri üçün əlverişli zəmin yaradır. İki yerli bələdçi ilə aparılmış müsahibələr bölgədə ekoturizmin əsas potensialını, problemlərini və dəstək ehtiyaclarını üzə çıxarmışdır. Əsas problemlər yol infrastrukturu, qoruqlara giriş məhdudiyyətləri və maliyyə çatışmazlığı ilə

bağlıdır. Dayanıqlı ekoturizmin inkişafı üçün sistemli planlaşdırma, icma iştirakı və beynəlxalq təcrübələrin lokallaşdırılması tövsiyə olunur.

# NƏTİCƏ VƏ TƏKLİFLƏR

Azərbaycanın Şimal-Qərb bölgəsində ekoturizm potensialının qiymətləndirilməsi məqsədilə aparılan bu tədqiqat göstərdi ki, region zəngin təbii resursları, biomüxtəlifliyi və mədəni irsi ilə ekoturizmin inkişafı üçün əlverişli məkandır. Lakin bu potensialın tam reallaşdırılması üçün yalnız fiziki resurslar kifayət etmir; ictimai şüur, institusional dəstək və effektiv idarəetmə mexanizmləri də vacib rol oynayır.

Sorğu tədqiqatının nəticələrinə əsasən, respondentlərin ekoturizmə dair məlumatlılıq səviyyəsi orta-yüksək səviyyədə (mean: 3.26) olsa da, bu məlumatlılıq praktik iştirak səviyyəsinə birbaşa təsir göstərmir. Aparılmış chi-square və korelyasiya analizləri məlumatlılıq ilə iştirak, cins və yaş kimi dəyişənlər arasında statistik əhəmiyyətli əlaqə olmadığını göstərmişdir ($p > 0.05$). Bu isə onu deməyə əsas verir ki, ekoturizmdə iştirak təkcə məlumatlılıqdan deyil, həm də infrastruktur, logistik əlçatanlıq və sosial təşviqlərlə bağlıdır. Respondentlərin ekoturizmə münasibəti mülayim şəkildə müsbətdir. “Ekoturizm ətraf mühiti qoruyur” ifadəsinə ortalama 3.5 bal verilməsi, insanların bu turizm növünü ətraf mühitə faydalı kimi qəbul etdiyini göstərir. Lakin münasibət hələ də güclü mövqedə dayanmır – bu isə ekoturizmlə bağlı ictimai şüurun daha da artırılmasının zəruriliyini ortaya qoyur. Açıq sualların analizi nəticəsində əsas problemlər aşağıdakı kimi müəyyənləşdirilmişdir:

- ✓ İnformasiya çatışmazlığı və reklamın zəifliyi;
- ✓ Turizm infrastrukturunun (yol, yerləşmə, xidmət) yetərsizliyi;
- ✓ Təşkilati koordinasiyanın zəifliyi və peşəkar kadr çatışmazlığı.

Bu çətinliklər SWOT təhlili ilə də təsdiqlənmiş və xüsusilə “zəifliklər” və “təhlükələr” hissələrində ətraflı şəkildə izah olunmuşdur. Regionda təbiətə əsaslanan marşrutlar, dağ yürüşləri və kənd turizmi üçün böyük imkanlar olsa da,

bu imkanlar sistemli şəkildə təqdim olunmur və ziyarətçilərə açıq, təhlükəsiz və planlaşdırılmış formada təqdim edilmir. Təkliflər aşağıdakılardan ibarətdir:

- ✓ Maarifləndirmə və ekoloji təbliğatın gücləndirilməsi
- ✓ İnfrastrukturun inkişaf etdirilməsi
- ✓ İcma əsaslı turizm modellərinin tətbiqi
- ✓ Rəqəmsal informasiya sistemlərinin qurulması
- ✓ Beynəlxalq təcrübənin lokallaşdırılması

Bu tədqiqat göstərdi ki, Azərbaycanın Şimal-Qərb bölgəsində ekoturizm sahəsində böyük imkanlar mövcuddur. Lakin bu sahənin davamlı inkişafı üçün yalnız təbii resurslara deyil, həm də dayanıqlı idarəetməyə, yerli iştirakçılığa və maarifləndirici siyasətlərə ehtiyac vardır. Tətbiq olunacaq kompleks yanaşma sayəsində region yalnız daxili deyil, beynəlxalq səviyyədə də nümunəvi bir ekoturizm mərkəzinə çevrilə bilər.

## ƏDƏBİYYAT SİYAHISI

1. Azərbaycan Milli Elmlər Akademiyası Coğrafiya İnstitutu. (2020). *Azərbaycanın təbii-coğrafi şəraiti və iqlimi haqqında məlumatlar*. Bakı: AMEA Coğrafiya İnstitutu.
2. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi. (2022**).** *Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin rəsmi internet səhifəsi*. https://stat.gov.az
3. Azərbaycan Respublikası Prezidentinin Administrasiyası. (2016, dekabr 6). *Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafı üzrə Strateji Yol Xəritəsi*. https://president.az/az/articles/view/22134
4. Azərbaycan Respublikası Təhsil Nazirliyi. (2019). *Ekoturizm və təbiətə məsuliyyətli yanaşmalar üzrə tədris materialları*. Bakı.
5. Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi. (2022). *Azərbaycanın turizm potensialı və inkişaf prioritetləri haqqında hesabat*. Bakı: DTA. https://tourism.gov.az
6. Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondu. (2019). *Biomüxtəliflik və təbii sərvətlər üzrə araşdırmalar*. Bakı: AR EIF.
7. Becken, S., & Hay, J. E. (2007). *Tourism and climate change: Risks and opportunities*. Channel View Publications.
8. Doc.govt.nz. (2024). *Department of Conservation – New Zealand*. https://www.doc.govt.nz
9. Ekologiya və Təbii Sərvətlər Nazirliyi. (2021). *Rəsmi hesabatlar və statistika*. https://eco.gov.az
10. e-qanun.az. (1999). *Turizm haqqında Azərbaycan Respublikasının Qanunu* (Qanun № 674-IQ, qəbul tarixi: 4 iyun 1999). https://e-qanun.az/framework/49162

11. Fennell, D. A. (1999). *Ecotourism: An introduction*. Routledge.
12. GSaz.az. (2023). *Şəki-Zaqatala iqtisadi-coğrafi rayonu haqqında*. https://gsaz.az/articles/view/112/ShakiZaqatala-iqtisadicografi-rayonu
13. Honey, M. (2008). *Ecotourism and sustainable development: Who owns paradise?* (2nd ed.). Island Press.
14. Ict.go.cr. (2023). *Costa Rica Tourism Board*. https://www.ict.go.cr
15. MagicalKenya.com. (2024). *Kenya Tourism Board*. https://www.magicalkenya.com
16. Nepal, S. K., & Chipeniuk, R. (2005). Mountain tourism: Toward a conceptual framework. *Tourism Geographies, 7*(3), 313–333. https://doi.org/10.1080/14616680500164851
17. Parks.swiss. (2024). *Swiss Parks Network*. https://www.parks.swiss
18. Pc.gc.ca. (2024). *Parks Canada*. https://www.pc.gc.ca
19. Steck, B. (1999). *Sustainable tourism as a development option: Practical guide for local decision-makers*. Swiss Agency for Development and Cooperation (SDC).
20. Tra.gov.au. (2023). *Tourism Research Australia*. https://www.tra.gov.au
21. UNWTO. (2019). *Guidelines for the development of ecotourism in protected areas*. World Tourism Organization.
22. UNWTO. (2020). *International tourism highlights: 2020 edition*. United Nations World Tourism Organization. https://www.unwto.org/
23. UNWTO. (2022). *Tourism and sustainable development: A global perspective*. United Nations World Tourism Organization. https://www.unwto.org/
24. UNWTO. (2024). *Tourism and green investments: World tourism day 2024*. United Nations World Tourism Organization. https://www.unwto.org/
25. Weaver, D. (2001). *Ecotourism*. Wiley.

26.WelcomeNepal.com. (2024). *Official site of Nepal Tourism Board*. https://www.welcomenepal.com

# AZƏRBAYCANIN ŞİMAL-QƏRB BÖLGƏSİNDƏ EKOTURİZMİN İNKİŞAF PERSPEKTİVLƏRİ

## XÜLASƏ

Ekoturizm, müasir dövrdə ətraf mühitin qorunması, təbii resursların səmərəli istifadəsi və yerli icmaların sosial-iqtisadi rifahının artırılmasına töhfə verən strateji əhəmiyyətə malik turizm növü olaraq ön plana çıxır. Bu mənada, Azərbaycanın şimal-qərb bölgəsi — Qax, Zaqatala, Balakən, Qəbələ, Oğuz və Şəki rayonlarını əhatə edən ərazi, müxtəlif təbiət mənzərələri və zəngin bioloji müxtəlifliyi ilə ekoturizmin inkişafı üçün əlverişli şərait yaradır. Mövzunun aktualığı, ekoturizm vasitəsilə bölgədə davamlı inkişafın təşviq edilməsinin vacibliyindən irəli gəlir.

Birinci fəsil ekoturizmin nəzəri əsaslarını təqdim edir, tarixi inkişafını və beynəlxalq təriflərini təhlil edir. Ekoturizmin sürdürülebilir turizm modelləri daxilindəki rolunu, xüsusiyyətlərini və digər turizm növləri ilə müqayisədə minimal ətraf mühitə təsir etmə prinsipini izah edir.

İkinci fəsil Azərbaycanın şimal-qərb bölgəsindəki ekoturizm potensialını detallı şəkildə təhlil edir. Bu fəsildə bölgənin təbiət resursları, iqlim şəraiti, bioloji müxtəlifliyi və turistlər üçün maraqlı fəaliyyətlər ətraflı şəkildə araşdırılır. Eyni zamanda, infrastrukturun zəifliyi, marşrutların qeyri-rəsmi olması və icmaların məhdud iştirakı kimi mövcud çətinliklər müəyyən edilir.

Üçüncü fəsil bölgədəki ekoturizm marşrutlarını və onların inkişaf perspektivlərini müzakirə edir. Bu fəsildə Costa Rika, İsveçrə, Kanada və Norveç kimi ölkələrin ekoturizm modellərinin yerli şəraitə uyğunluğunu qiymətləndirir və onların üstünlükləri ilə yanaşı, mümkün problemləri də analiz edir. Bu qiymətləndirməyə əsaslanaraq bölgəyə xüsusi təkliflər irəli sürülür.

Tədqiqatın nəticələrinə görə, Azərbaycanın şimal-qərb bölgəsində ekoturizmin inkişafı üçün böyük potensial mövcuddur. Lakin bu potensialın reallaşması üçün sistematik planlaşdırma, ətraf mühit təhsili, icma əsaslı idarəetmə və beynəlxalq təcrübələrin inteqrasiyası vacibdir. Tədqiqatda irəli sürülən təkliflər, ekoturizmin həm ekoloji, həm də sosial-iqtisadi cəhətdən balanslı şəkildə inkişafına kömək edə bilər.

# DEVELOPMENT PROSPECTS OF ECOTOURİSM İN THE NORTHWESTERN REGİON OF AZERBAİJAN


## SUMMARY

Ecotourism has emerged as a strategically important form of tourism in the modern era, contributing to the protection of the environment, the efficient use of natural resources, and the improvement of the socio-economic welfare of local communities. In this context, the northwestern region of Azerbaijan — encompassing the districts of Qakh, Zagatala, Balakan, Gabala, Oghuz, and Shaki — with its diverse natural landscapes and rich biodiversity, offers favorable conditions for the development of ecotourism. The relevance of the topic stems from the necessity of promoting sustainable development in the region through ecotourism.

The first chapter provides a theoretical overview of ecotourism, analyzing its historical development and international definitions. It explains the role of ecotourism within sustainable tourism models, highlighting its distinguishing features and its principle of minimal environmental impact compared to other types of tourism.

The second chapter presents a detailed analysis of the ecotourism potential in Azerbaijan's northwestern region. It explores natural resources, climatic conditions, biodiversity, and activities attractive to tourists. At the same time, it identifies current challenges such as poor infrastructure, the informal nature of routes, and limited community involvement.

The third chapter examines the ecotourism routes in the region and their development prospects. It evaluates the applicability of international ecotourism models (Costa Rica, Switzerland, Canada, and Norway) to the local context, analyzing their advantages and potential challenges. Based on this evaluation, region-specific recommendations are proposed.

As a result of the study, it has been determined that there is strong potential for the development of ecotourism in Azerbaijan's northwestern region. However, realizing this potential requires systematic planning, environmental education, community-based management, and the integration of international best practices. The proposed recommendations in the study can contribute to the balanced development of ecotourism both environmentally and socio-economically.